RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 40 (8356) ŞƏNBƏ, 22 fevral 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



İlham Əliyevin İtaliyaya dövlət səfəri

# Azərbaycan-İtaliya biznes forumu: ikitərəfli əlaqələrin tarixində yeni səhifə

**Fevralın 21-də Romada Azərbaycan-İtaliya biznes forumu keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev biznes forumda iştirak edib.

**Tədbirin aparıcısı:** Hamınızı salamlayıram. Bu gün burada bu qədər çox olduğunuza görə sizə təşəkkür edirəm. Bu gün biznes forumu açıq elan edirik. Mən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi burada gördüyümə çox şadam və şərəf hissi keçirirəm. İtaliyanın Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq nazirini burada görməkdən çox məmnunam. Vaxt itirmədən sözü Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq nazirinə verirəm.

İtaliyanın Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq naziri biznes forumda çıxış etdi.

## Nazir Luici Di Mayonun çıxışı

- Azərbaycan Respublikasının hörmətli Prezidenti cənab İlham Əliyev.

Əziz həmkarım Xarici İşlər naziri, hörmətli iş adamları, xanımlar və cənablar.

Bu gün sizi Xarici İşlər Nazirliyində görməkdən, xüsusilə də hörmətli Prezident cənab Əliyevlə birlikdə forumda iştirakdan çox böyük məmnunluq hissi duyuram. Bu gün burada olan nazirləri, eləcə də həm İtaliya, həm də Azərbaycan tərəfdən forumda iştirak edən iş adamlarını, dövlət qurumlarının nümayəndələrini salamlayıram.

Biz qeyd etmək istəyirik ki, İtaliya Aralıq dənizi və Avropa, Afrika və Asiya ilə bir yerdə böyük bir körpü təşkil edir. Bu körpü Avropa ilə Asiya arasında strateji tərəfdaşlığa malikdir. Azərbaycan və İtaliya istər tarixi, istərsə də coğrafi cəhətdən qədim ölkələrdir. Məşhur italyan səyyahı Marko Polo öz əsərlərində Azərbaycan haqqında, Yanardağ haqqında danışmışdır. O, hələ XIII əsrdə iş adamlarına, yəni o vaxtın tacirlərinə Azərbaycan haqqında məlumat vermişdir.

Azərbaycan ilə İtaliya arasında münasibətlər həm dostluq əlaqələrinə əsaslanır, həm də mədəni, etnik, dini və müxtəlif dilləri birləşdirən dialoq üzərində qurulmuşdur. Sizin bu gün İtaliyaya səfəriniz ilk dövlət səfərinizdir. Bu, bizim əlaqələrimizin yüksək səviyyədə olduğunu göstərir.

Roma ilə Bakı arasındakı dostluğu və yaxınlığı Sizin İtaliyaya bu səfəriniz bir daha təsdiqləyir. Son illərdə İtaliya ilə Azərbaycan arasında ticari əlaqələr möhkəmlənib. Bu bizim əlaqələrimizin dinamik şəkildə inkişafına böyük dəstək verib.

Dünən Çoxtərəfli Strateji Əməkdaşlıq haqqında Birgə Bəyannamənin imzalanması bizim əlaqələrimizə növbəti dəstək verəcək. Biz bilirik ki, bu əlaqələr təkcə energetika sahəsində deyil, eləcə də Roma ilə Bakı arasında olan körpünü özündə birləşdirir və münasibətlərimizin daha geniş şəkildə inkişafına kömək edəcək.

İtaliya Azərbaycanın birinci ticari tərəfdaşı hesab olunur. On ildən az müddətdə bizim ticari əlaqələrimiz 70 faizə qədər artıb. Son on ildə İtaliyanın Azərbaycandan olan idxalı 55,5 milyard avro təşkil edib. Bu gün burada iştirak edən italyan şirkətləri müxtəlif sahələr - nəinki neft və qaz sahəsi, eləcə də digər sahələr üzrə fəaliyyət göstərirlər. Bu şirkətlərin əlaqələrimizin inkişafına öz dəstəyini verməsi gözlənilir. Son 15 ildə İtaliya şirkətləri tərəfindən Azərbaycanda qazanılmış tenderlərin dəyəri 7 milyard avro təşkil edir.

Bizim münasibətlərimiz mühüm strateji əməkdaşlığımızı bir daha təsdiq edir. Həqiqətən də Azərbaycan hökumətinin iqtisadiyyat sahəsində, eləcə də iş adamları ilə münasibətləri möhkəmlətmək istiqamətində göstərdiyi səylərə görə çox böyük minnətdarlığımızı bildiririk. Hökumət biznes mühitinin, eləcə də KOB-ların və digər iş adamlarının hüquqi sistem baxımından qorunmasına böyük dəstək göstərir. Biz buna görə də təşəkkürümüzü bildiririk.

Bizim 100-dən çox şirkətimiz hazırda Azərbaycanda fəaliyyət göstərir. İstər dizayndan turizmə, istər aqrar sənayedən yaşıl texnologiyaya və istərsə də nəqliyyatdan logistikaya qədər hər bir sahədə biz Azərbaycanda fəaliyyət göstəririk. Təbii ki, bu, şirkətlərimizə Azərbaycanda göstərilən böyük dəstəyin nəticəsidir.

Cənab Prezident, mən bilirəm ki, bizim sənaye sahəsində əməkdaşlığımızı gücləndirmək üçün lazımi şərtlərimizin hamısı var. Biz bu fürsətləri, eləcə də imkanları bir yerdə dəyərləndirməliyik.

Mən bu gün biznes forumun əsas sektorlarını düşünəndə demək istəyirəm ki, İtaliya bütün bu sahələr üzrə dünya səviyyəsində böyük təcrübəyə malikdir. Məsələn, infrastruktur və nəqliyyat sahəsində İtaliya dünya səviyyəsində özünün əvəzolunmaz rolunu oynamışdır. Xüsusən də bu, şirkətlərin beynəlmiləlləşdirilməsi və KOB-lara dəstək verilməsində böyük rol oynayır. Biz əminik ki, italyan şirkətlərinin bacarıqları sizə kömək edəcək. Bu sahədə göstərdiyi dəstəklə, yeni İpək Yolunun yaradılması ilə Azərbaycan əsas nəqliyyat habına çevrilib. Məsələn, yeni Ələt limanında xüsusi iqtisadi zonanın yaradılması buna misaldır.



Aqrar sənayedə bizim şirkətlərimiz texnologiya və istehsal səviyyəsi baxımından dünyada birincidir. İtaliya şirkətləri xüsusən də kənd təsərrüfatı avadanlıqlarının təkmilləşdirilməsi üzrə ixtisaslaşmışdır. Həmin avadanlıqlar əsasən ətraf mühitin qorunmasında xüsusi rol oynayır. Bunun hesabına bizim kənd təsərrüfatımız istixana qazını 50 faiz azaldıb. Təbii ki, bu, Avropa İttifaqındakı digər ölkələrə nisbətən ən yaxşı göstəricidir.

Bərpaolunan energetika və ekodayanıqlı texnologiya sahəsində İtaliyanın uzunmüddətli təcrübəsi var. Günəş, külək və geotermik sahələrdə bərpaolunan enerji mənbələrinin istifadəsində zəngin təcrübəyə malikik. İtaliyanın 432 minə yaxın şirkəti son 15 ildə biotexnologiyaların inkişafına öz dəstəyini göstərmişdir. Xüsusilə biotexnologiyalar sahəsində şirkətlərin sayı 31,2 faiz təşkil edir, emal sahəsində isə 35,8 faiz.

Mən əminəm ki, Abşeron ərazilərinin münbitləşdirilməsində italyan şirkətləri böyük rol oynaya biləcəklər. Eləcə də demək istəyirəm ki, italyan şirkətləri infrastruktur, maşınqayırma, aqrar sənaye, rəqəmsallaşdırma, əczaçılıq və tekstil sahələrində fəaliyyət göstərməkdə çox maraqlıdırlar. İtaliya hökuməti də buna böyük dəstək verir. Çünki bildiyiniz kimi, ticari siyasətin strategiyası və beynəlmiləlləşdirilməsinin genişlənməsi ilə bağlı İtaliya hökuməti şirkətlərə öz dəstəyini göstərir. Burada əsas məqsəd şirkətləri xarici bazarlarda təqdim etmək və bu şirkətlərin sayını daha da artırmaqdır. Bu şirkətlərin, assosiasiyaların, eləcə də digər şirkətlərin bunu etməkdə əsas məqsədi onların həqiqətən güclü "nou-hau"ya malik olmasıdır. İtaliya hökumətinin məhz iş adamlarına dəstək verməsi onların Azərbaycanda fəaliyyət göstərməsinə kömək olacaq.

Cənab Prezident, mən bir daha Sizə təşəkkürümü bildirirəm. Çünki bu gün Sizin və eləcə də iş adamlarının burada iştirakı ölkələrimiz arasında qarşılıqlı əlaqələri daha da dərinləşdirəcək. Əminəm ki, bu, bizim əlaqələrimizdə yeni bir addım atmağa kömək edəcək. Hamınıza təşəkkür edirəm.

❖ ❖ ❖

Sonra biznes forumda Azərbaycan Prezidenti çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı

- Hörmətli cənab nazir.

- Hörmətli xanımlar və cənablar, əziz dostlar.

Mən çox şadam ki, İtaliyaya dövlət səfərim çərçivəsində İtaliya-Azərbaycan biznes forumu keçirilir. Əminəm ki, forum çox məhsuldar olacaq və forumun işi nəticəsində iki ölkə arasındakı iqtisadi və ticari əlaqələr yeni pilləyə qalxacaqdır. Mən buna əminəm. Bunu deməyə əsas verən bir çox amillər var. Bildiyiniz kimi, bu gün mənim İtaliyaya dövlət səfərimin sonuncu günüdür. Prezident Mattarellanın dəvəti ilə mən gözəl ölkənizdə dövlət səfərindəyəm və bu, münasibətlərimizin çox yüksək səviyyədə olmasının təzahürüdür. 2018-ci ildə Prezident Mattarella Azərbaycanda rəsmi səfərdə idi və deyə bilərəm ki, o səfərdən sonra iki dövlət arasındakı əlaqələrə çox güclü təkan verilmişdir. Dünən və bu gün 25-dən çox sənədin imzalanması bunun əyani sübutudur. Çünki yalnız bir-birinə çox yaxın olan ölkələr arasında bu qədər sənədlərin imzalanması mümkündür. Bu sənədlər bir çox sahələri əhatə edir. Siyasi, iqtisadi, mədəni, humanitar, təhsil, energetika, kosmik sənaye, hərbi sənaye və digər sahələri əhatə edən bu sənədlər gələcək əməkdaşlığımız üçün gözəl baza yaradır. Bu sənədlərin arasında Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannaməni xüsusilə qeyd etmək istərdim. Bu, çox ciddi siyasi sənəddir və əslində bizim gələcək ikitərəfli əməkdaşlığımızın əsas prioritetlərini müəyyən edən bir sənəddir. Bu sənəddə çox önəmli müddəalar var. Bu müddəalar onu göstərir ki, bizim əlaqələrimiz hətta müttəfiqlik əlaqələrinə yaxındır. Çünki oradakı maddələrdən birində göstərilir ki, biz beynəlxalq təşkilatlarda maraqlarımızı nəzərə alaraq bir-birimizi dəstəkləyəcəyik.

O ki qaldı iqtisadi sahəyə, cənab nazirin dediyi kimi, İtaliya Azərbaycanın birinci ticarət tərəfdaşıdır. Ancaq biz onu bilməliyik ki, bu, ilk növbədə, Azərbaycandan İtaliyaya xam neftin ixrac edilməsinə görə mümkün olmuşdur. Bizim əsas vəzifəmiz ticarət əlaqələrimizin şaxələndirilməsidir. Neft-qaz sektorundan başqa layihələrin həyata keçirilməsi hesab edirəm ki, belə imkanlar yaradacaqdır.

Azərbaycan uzun illərdir ki, İtaliyanı xam neftlə təchiz edir. Azərbaycandan gələn xam neft İtaliyanın istehlakının 18 faizini təşkil edir və Azərbaycan birinci yerdədir. TAP layihəsinin uğurla başa çatması nəticəsində Azərbaycan və İtaliya bundan sonra onilliklər ərzində qaz sahəsində çox etibarlı tərəfdaşlar kimi birgə fəaliyyət göstərəcəklər.

Ardı 2-ci səh.

# İtaliyada Azərbaycan ili

### Prezident İlham Əliyevin bu ölkəyə dövlət səfəri zamanı imzalanan Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə strateji tərəfdaşlığın gələcək istiqamətlərini müəyyənləşdirdi

**Tam müstəqil siyasəti ilə dünya birliyinin etibarlı tərəfdaşı statusunu qazanan Azərbaycan dinamik inkişafa və müasirliyə gedən yolda inamla addımlayır.**

Hazırda Azərbaycanın dünyanın ayrı-ayrı qütblərində yerləşən çoxlu sayda dövlətlə müxtəlif səpkili əlaqələri var. Rəsmi Bakı diplomatik əlaqələrdən başlamış, dərin siyasi, iqtisadi-ticari, humanitar-mədəni münasibətlərə qədər bir çox dövlətlə əməkdaşlıq edir. Lakin dostluq münasibətlərinə gəldikdə bir neçə əsas dövlət yada düşür ki, onlardan da biri İtaliyadır.

25 ildən çoxdur iki ölkə arasında mövcud olan diplomatik əlaqələr çərçivəsində münasibətlər müstəsna inkişafa nail olub. Bu gün İtaliya Azərbaycanın bir nömrəli ticarət tərəfdaşıdır. Keçən il iki ölkə arasında ticarət dövriyyəsi 6 milyard dollara çatıb. Azərbaycan İtaliya üçün bir nömrəli xam neft təchizatçısıdır. İtaliyanın xam neft istehlakının 17 faizi ölkəmizin payına düşür.

Prezident İlham Əliyevin Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə birlikdə fevralın 19-da İtaliyaya dövlət səfəri isə münasibətlərin daha da dərinləşməsinə, iqtisadi-ticari əlaqələrin şaxələnməsinə real zəmin yaratmış oldu. Dövlətimizin başçısı öncə rəsmi görüşlər keçirdi. İtaliya Prezidenti Sercio Mattarella, Nazirlər Şurasının Sədri Cüzeppe Konte, Senatın Sədri, senator xanım Maria Elisabetta Alberti Kaselatti, Deputatlar Palatasının sədri Roberto Fiko, Roma şəhərinin meri xanım Vircinia Ragg ilə keçirilən görüşlərdə bildirildi ki, bu səfər Azərbaycan və İtaliya arasında səmimi dostluğun və güclənən əməkdaşlığın getdikcə daha da möhkəmlənməsi, habelə iki ölkə arasında bütün istiqamətlərdə - enerji, ticari-iqtisadi, siyasi və mədəni sahələrdə əməkdaşlığın dəyərləndirilməsi üçün gözəl fürsətdir.

Ardı 5-ci səh.

# SƏBRİN HÜDUDU VARMI, ALLAHIM?!

**Allah birdir - hərə öz dilində ona dua edir, ondan imdad diləyir!**

**Allah birdir - dinlər müxtəlif olsalar da!**

**Biz də Allahın birliyinə, böyüklüyünə inanmışıq, onu qəbul etmişik!**

Heç zaman Allahı bütlərdə, Yer üzündə axtarmırıq.

Oda sitayiş etməyi də əsrlərdir ki, tərgitmişik!

*Bütün dinlərə hörmətlə yanaşırıq - bir olan Allahın xatirinə!*

*Bütün dini məbədləri müqəddəs tuturuq - hamısını Allahın evi saydığımıza görə!*

Tanrının qoyduğu yoldan çıxmamağa çalışırıq (söhbət bütövlükdə millət haqqında gedir) - yolun müqəddəsliyini dərk etdiyimizə və Allahımızın qəzəbindən qorxduğumuza görə!

❖ ❖ ❖

Həmişə səni hörmət və məhəbbətlə anırıq, böyük Yaradanımız!

Ucalığına, həm də ədalətinə görə!

Həm də inanırıq ki, ən qudurğan ədalətsizi də cilovlamaq və cəzalandırmaq qüdrətindəsən!

İstər tiran olsun, istər dövlət, istərsə də yolunu azmış millət!

**Bəs nəyi gözləyirsən, uca Tanrım?!**



**Səbrin hüdudu olurmu, Allahım?!**

**Səbir nə zaman tükənmiş sayılır, İlahi?!**

**Səbrin tükənməsi üçün daha nələr baş verməlidir, ay bizi Yaradan?!**

Biz bəndəyik, kiçiyik, yəqin ki, səbrimiz də kiçik olmalıdır!

Amma düşmənimiz hiyləgər, arxası möhkəm və güclü olduğundan ona hələlik gücümüz çatmır!

*Səbirli olduğumuza görə dözürük!*

*Gücümüz çatmadığı üçün səbir edirik!*

*Həm də səbir etməyə məcburuq!*

**Sənsə hamıdan güclüsən!**

**Sən niyə bu qədər səbir eləyirsən?!**

Ardı 6-cı səh.

# Qarabağda qələbəmizin möhtəşəm başlanğıcı

Münxen Təhlükəsizlik Konfransında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında baş tutmuş debat (bəzi mətbuat orqanları buna "Duel" də deyirlər) bir çox məqamları ilə əlamətdar oldu. Əvvəla, iki sərhəd qonşusu - eyni zamanda separatçı ermənilər sayəsində düşmən olmuş ölkələrin liderlərinin dövlət və hökumət başçısı kimi səviyyələri ortaya qoyuldu. Münxendə məntiqlə məntiqsizlik, savadla savadsızlıq, ziyalılıqla meydan boşboğazlığı üz-üzə durdu.

Açığı, özündən asılı olmayaraq nizamsız fikirləri (fikirsizliyi) ilə miskin vəziyyətə düşmüş Paşinyan çox məzlum görünürdü. Dili topuq çalırdı. Prezident İlham Əliyev Dağlıq Qarabağın ərazi kimi hansı respublikaya mənsub olduğu barədə konkret, tarixi faktlarla məlumat verdi. Təbii ki, debatın qaydalarına əsasən, qarşı tərəf kontur sübutlar, arqumentlər gətirməklə rəqibinə cavab verməli idi. Təkzibolunmaz faktlar qarşısında çaşqın vəziyyətdə qalmış Paşinyan mətləbə dəxli olmayan bir əfsanə ilə tədbir iştirakçılarının da təəccübünə səbəb oldu. Bu təəccübün içində ona qarşı bir ironiya, gülüş də var idi. Dedi ki, eramızdan əvvəl Böyük Tiqran adlı kral olub. Onda Qafqazlarda ancaq ermənilər... Bu məqamda İlham Əliyev onun sözünün davamı olaraq rişxəndlə "və yenə ermənilər yaşayıb" dedi. Bu replikadan sonra zalda əyləşənlərin çoxu artıq gülüşünü içərilərində boğub saxlaya bilmədilər.

Paşinyan tarixi dəlil əvəzinə, necə deyərlər, "Məlikməmməd nağılı" danışdı. 45 dəqiqədən çox çəkən debat Paşinyan üçün əsl cəhənnəm əzabı oldu. O, başa düşdü ki, Münxen Təhlükəsizlik Konfransı kürsüsü Yerevanın kütlələrin toplaşdığı mitinq meydanı deyil. Burada pafos, erməni xalqının beyninə hopdurulmuş yalanlar keçmir.

Ardı 7-ci səh.

İlham Əliyevin İtaliyaya dövlət səfəri

# Azərbaycan-İtaliya biznes forumu: *ikitərəfli əlaqələrin tarixində yeni səhifə*







*Əvvəli 1-ci səh.*

TAP layihəsi başa çatmaq üzrədir. Layihənin icrası 92 faiz təşkil edir və bildiyiniz kimi, TAP "Cənub qaz dəhlizi"nin 4-cü seqmentidir. Bu günə qədər digər 3 seqmentdə işlər tamamilə başa çatıb. Əminəm ki, bu ilin sonunda biz layihənin tam istismara verilməsini qeyd edəcəyik. Dünən Nazirlər Şurasının Sədri cənab Konte ilə görüş zamanı mən onu Azərbaycanda keçiriləcək təntənəli rəsmi mərasimə dəvət etdim. O da bu dəvəti qəbul etdi.

Azərbaycan və İtaliya "Cənub qaz dəhlizi"nin iki məntəqəsində yerləşir. Bizim aramızda daha 5 ölkə var. Bu nadir infrastruktur layihəsinə həm texniki, həm maliyyə, eyni zamanda beynəlxalq əməkdaşlıq baxımından doğrudan da analoq tapmaq çox çətindir. Yeddi ölkəni birləşdirən, aparıcı beynəlxalq maliyyə qurumları tərəfindən maliyyələşdirilən və bir çox qabaqcıl şirkətlərin iştirakı ilə reallaşan bu layihə İtaliya-Azərbaycan dostluğunun təzahürüdür. Biz bu layihəni yalnız dostluq şəraitində icra edə bilmişik. Demək olar ki, biz layihənin artıq son mərhələsindəyik.

Eyni zamanda indi bizim əsas vəzifəmiz TAP-dan sonrakı iqtisadi əməkdaşlığı dərinləşdirməkdir. Dünən mən işçi nahar əsnasında İtaliyanın aparıcı şirkətlərinin rəhbərləri ilə görüşmüşəm. Onların bir çoxu Azərbaycanda artıq uzun illərdir ki, fəaliyyət göstərirlər, bir çoxları isə fəaliyyətə başlamaq istəyirlər. Biz də bunu istəyirik və imzalanmış kontraktlar cənab nazirin qeyd etdiyi kimi, milyardlarla avro həcmindədir. Əminəm ki, gələcək əməkdaşlıq daha da genişmiqyaslı olacaq. Çünki strateji tərəfdaşlar kimi biz ticarət və biznes sahələrində də bir-birimizi dəstəkləməliyik.

Hesab edirəm ki, gələcək əməkdaşlıq üçün bir çox sahələr seçilə bilər. Əslində bu sahələr dünən və bu gün imzalanmış və imzalanacaq sazişlərdə öz əksini tapıb. Mən nəqliyyat sahəsini xüsusilə qeyd etmək istərdim. Azərbaycan öz ərazisində nəqliyyat infrastrukturunu tamamilə yeniləşdirib. Davos Ümumdünya İqtisadi Forumunun hesabatında nəqliyyat infrastrukturu baxımından Azərbaycan dünyada 34-cü yerdədir. Dəmir yollarının səmərəliliyinə görə 12-ci, hava yollarının səmərəliliyinə görə isə 11-ci yerdədir. Azərbaycan - açıq dənizlərə çıxışı olmayan ölkə artıq beynəlxalq nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. Şərq-Qərb nəqliyyat dəhlizi Azərbaycanın ərazisindən keçir. Bu, Azərbaycanın təşəbbüsü ilə reallaşan Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsindən sonra mümkün olmuşdur. Eyni zamanda Şimal-Cənub nəqliyyat dəhlizi də Azərbaycanın ərazisindən keçir. Azərbaycan yeganə ölkədir ki, hər iki önəmli nəqliyyat dəhlizinin iştirakçısıdır və bu dəhlizlər əslində genişmiqyaslı beynəlxalq əməkdaşlığa da yol açıb. Hazırda biz Şimal-Qərb və Cənub-Qərb nəqliyyat dəhlizləri ilə bağlı işlərlə məşğuluq. Yüklər artıq bu dəhlizlər üzərindən dünya bazarlarına çıxarılır. Dünən imzalanmış memorandumun birində Azərbaycan Dəmir Yolları ilə İtaliyanın müvafiq qurumları arasında məsələ öz həllini tapıbdır. Biz İtaliyadan dəmir yolu texnikası alacağıq.

Kosmik sənaye də çox perspektivli sahədir. Azərbaycanın artıq 3 peyki vardır. İtaliyanın bu sahədə əldə etdiyi təcrübə bizim üçün çox maraqlıdır. Bu günə qədər iki ölkə arasında kosmik sənaye sahəsində əlaqələr olmayıb. Ancaq dünən imzalanmış sənədə görə, biz artıq bu sahədə də əməkdaşlığı davam etdirəcəyik.

Sənaye istehsalının artması və Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi işində İtaliya şirkətləri bizə kömək göstərirlər. Cənab Mattarellanın səfəri çərçivəsində biz böyük neft-kimya müəssisəsinin açılışında bərabər iştirak etmişik. İtaliyanın aparıcı şirkətlərindən biri Azərbaycanda təqribən 1 milyard dollara yaxın dəyəri olan iki böyük sənaye müəssisəsi istifadəyə vermişdir. Yəni podratçı kimi işləmişdir. Hazırda həmin şirkət Azərbaycanda neftayırma zavodunun yenidən qurulmasında fəal iştirak edir. İmzalanmış kontraktların məbləği 800 milyon avrodan çoxdur. Bu hələ başlanğıcdır və əminəm ki, Azərbaycanın gələcək sənaye inkişafında İtaliya şirkətləri öz rolunu oynayacaq.

Bildirməliyəm ki, keçən il Azərbaycanın qeyri-neft sənayesi 16 faiz, bu ilin yanvar ayında isə təqribən 14-15 faiz artmışdır. Bu onu göstərir ki, sənaye istehsalına çox böyük diqqət göstərilir və özəl sektor bu sahəyə böyük investisiyalar qoymaqdadır. Əminəm ki, bundan sonra da bu istiqamətdə işlər aparılacaq.

Mən dünən imzalanmış sənədlər arasında birini də xüsusi qeyd etmək istərdim. Bu, hərbi sənaye kompleksinə aiddir. Bu da bir başlanğıcdır. Bu günə qədər İtaliya ilə Azərbaycan arasında hərbi sənaye sahəsində əməkdaşlıq olmayıb. Ancaq imzalanmış memorandum əsasında bu əməkdaşlığa start verilir. Əminəm ki, bu ilin sonuna qədər bütün lazımi texniki və kommersiya şərtləri razılaşdırılacaq və beləliklə, biz hərbi sənaye sahəsində uğurla əməkdaşlıq edəcəyik.

Cənab nazirin dediyi kimi, İtaliya şirkətlərinin kənd təsərrüfatı sahəsində çox böyük təcrübəsi var. Şirkətlərin bəziləri Azərbaycanda fəaliyyət göstərir. Hətta bir İtaliya şirkəti Azərbaycanda şərabçılığın inkişafı ilə məşğul olur və çox uğurla məşğul olur. O şirkətin istehsal etdiyi məhsul xarici bazarlara da ixrac edilir. Biz bu sahəyə də xüsusi əhəmiyyət veririk. Keçən il Azərbaycanda rekord səviyyədə-təqribən 200 min ton üzüm tədarük edilmişdir. Həmin üzümün əsas hissəsi texniki sortlardır. Ona görə hesab edirəm ki, şərabçılığın inkişafı çox perspektivli sahədir. İtaliyanın bu sahədə zəngin təcrübəsi var. Azərbaycanın da təcrübəsi var və müvafiq bazarlara çıxış üçün bizim heç bir problemimiz yoxdur.

Kənd təsərrüfatının digər sahələrini də qeyd etmək istərdim. İtaliyanın zeytunçuluq sahəsində böyük təcrübəsi var. Azərbaycan artıq zeytun yağlarını ixrac etməyə başlamışdır. Biz İtaliya şirkətlərini bu sahəyə məsləhətçi və podratçı kimi dəvət edirik. Fındıqçılıqda Azərbaycan və İtaliya dünya miqyasında aparıcı istehsalçılardır. Biz deyəsən, üçüncü-dördüncü yerləri bölüşürük və bu sahənin də çox böyük perspektivi var. O cümlədən Azərbaycan İtaliyaya fındığın ixracı ilə məşğuldur və bilirəm ki, İtaliya şirkətlərinin bu sahəyə böyük marağı var. Biz onları dəvət edirik ki, Azərbaycanda bu və digər sahələri bizimlə bərabər inkişaf etdirsinlər. Çünki indi Azərbaycanda yeni texnologiyaların tətbiqi nəticəsində məhsuldarlıq kəskin şəkildə artır. İtaliyanın bu sahədə böyük təcrübəsinin olması, əlbəttə ki, bu əməkdaşlığı şərtləndirir.

Hesab edirəm ki, İtaliyanın turizm sahəsində nadir təcrübəsi var. İtaliya turistlərin sayına görə, zənnimcə, dünyada birinci, ya ikinci yerdədir. Azərbaycanda da bu sahə inkişaf edir. Keçən il turistlərin sayı təqribən 20 faizə yaxın artıbdır. Şadam ki, son üç il ərzində İtaliyadan Azərbaycana gələnlərin sayı təxminən 40 faiz artmışdır. Bu, insanlar arasındakı əlaqələrə də çox müsbət təsir göstərir.

Azərbaycan ilə İtaliya arasında mədəniyyət sahəsindəki əməkdaşlığı xüsusilə qeyd etmək istərdim. Artıq səkkiz ildir ki, Villa Borgeze parkında dahi Azərbaycan şairi Nizaminin abidəsi ucalıb. Azərbaycanın Romada Mədəniyyət Mərkəzinin fəaliyyət göstərməsi ilə bağlı müvafiq addımlar atılıbdır. Şəhərin mərkəzində gözəl bina alınıbdır və əminəm ki, yaxın zamanlarda Azərbaycan Mədəniyyət Mərkəzi Romada fəaliyyətə başlayacaq.

Biz bütün başqa sahələrdə də əməkdaşlığa açığıq. Azərbaycanın gələcək planlarına gəldikdə, infrastruktur layihələri prioritet təşkil edəcək və biz İtaliya şirkətlərini dəvət edirik. Əminəm ki, biznes forum çərçivəsində Azərbaycanda görüləcək işlər haqqında təqdimat ediləcək və İtaliya şirkətləri məlumatlandırılacaqlar. Xüsusilə, içməli su layihələri, meliorativ tədbirlərin görülməsi və Abşeron yarımadasında ekoloji vəziyyətin yaxşılaşdırılması bu gün gündəlikdə duran məsələlərin arasındadır. Çünki Bakının da yerləşdiyi Abşeron yarımadasının neft hasilatına görə ekoloji vəziyyətinin yaxşılaşdırılmasına böyük ehtiyac var. Azərbaycan dövləti bu məqsədlərə böyük vəsait ayırır. Bildiyimə görə, İtaliya şirkətləri bu sahədə hələ ki fəal işləmirlər. Digər Avropa şirkətləri demək olar ki, bu sahəni əhatə edirlər. Ona görə mən İtaliya şirkətlərini bu sahəyə dəvət edirəm. Əminəm ki, Azərbaycan hökumətinin üzvləri bu məsələ ilə bağlı lazımi məlumatı təmin edəcəklər.

Əminəm ki, elektroenergetika sahəsində imzalanmış memorandum icra ediləcək. Yenə də qayıdıram Davos Ümumdünya İqtisadi Forumunun hesabatına. Orada göstərilir ki, elektrik enerjisinin əlçatanlıq əmsalına görə Azərbaycan dünyada ikinci yerdədir. Bizim bütün yaşayış məntəqələrimiz elektrik enerjisi ilə təchiz edilib. Biz elektrik enerjisini ixrac edirik. Bu ilin yanvar ayında iki böyük şirkətlə 440 meqavat gücündə külək və günəş elektrik stansiyalarının tikintisi ilə bağlı müvafiq sənədlər imzalanıb. İtaliya şirkətlərini də bu sahəyə dəvət edirik. Bizim bərpaolunan enerji ilə bağlı çox böyük potensialımız var. Azərbaycanda İtaliyadakı kimi günəşli günlər kifayət qədər çoxdur. Ancaq İtaliyadan fərqli olaraq küləkli günlər də çoxdur. Bəzən bu, problem yaradır. Ancaq bərpaolunan enerjinin istehsalı üçün hesab edirəm ki, bu, əlverişli amildir. Ona görə bu sahəyə də İtaliya şirkətlərini dəvət edirik.

O ki qaldı Azərbaycanın ümumi iqtisadi inkişafına, ölkəmizin iqtisadi vəziyyəti çox sabitdir. Bizim çox aşağı səviyyəli xarici dövlət borcumuz var, ümumi daxili məhsulun cəmi 17 faizini təşkil edir. Mənim tərəfimdən təsdiq edilmiş strategiyaya görə, bir neçə il ərzində bu 10 faizə düşməlidir. Bizim valyuta ehtiyatlarımız xarici dövlət borcumuzdan altı dəfə çoxdur. Ona görə biz istənilən vaxtda xarici borcu sıfırlaya bilərik. Yəni bu imkan verir ki, biz önəmli layihələrə beynəlxalq maliyyə bazarlarından da vəsait cəlb edək, baxmayaraq ki, Beynəlxalq Maliyyə Korporasiyası - IFC-nin hesabatında Azərbaycan artıq donor ölkə kimi tanınır və bu imkanlar gələcəkdə artacaqdır.

Onu da bildirməliyəm ki, Azərbaycan ölkədən kənarda böyük investisiyalar qoyur, böyük layihələr icra edir. Bu günə qədər ölkəmizin hüdudlarından kənarda təqribən 17 milyard dollar həcmində sərmayə qoyulubdur. İtaliya şirkətləri də bu layihələrdə iştirak edirlər. Dünən biz bu barədə söhbət etdik. Biz gələcəkdə Azərbaycanın maliyyə təminatı ilə xarici ölkələrdə reallaşan layihələrə İtaliya şirkətlərini də dəvət edirik.

Bütövlükdə, son 16 il ərzində Azərbaycan iqtisadiyyatı 3,4 dəfə artıb. Bu, dünya miqyasında rekord göstəricidir. Eyni zamanda əldə edilmiş gəlirlər ədalətli şəkildə bölünüb. Bunu deməyə əsas verən mühüm amil odur ki, 16 il bundan əvvəl Azərbaycan əhalisinin təxminən 50 faizi yoxsulluq şəraitində yaşayıb. Bu gün isə yoxsulluq şəraitində yaşayanların sayı 4,8 faizdir. Bir sözlə, ölkə qarşısında ciddi iqtisadi problemlər yoxdur. Əsas məsələ biznes iqliminin yaxşılaşdırılmasıdır və bu sahədə də islahatlar aparılıb və bu gün yəqin ki, bu barədə danışılacaq. Bir məsələni qeyd etmək istəyirəm ki, Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan biznes mühitinin sağlamlaşdırılması istiqamətində atılmış addımlara görə, 20 ən islahatçı ölkə sırasındadır.

Mən vaxtınızı çox almaq istəmirəm. Bilirəm ki, biznes forumun çox böyük gündəliyi var və İtaliya şirkətlərini maraqlandıran bütün suallara cavablar veriləcək. Çıxışımın sonunda bir məsələni qeyd etməliyəm. Artıq hökumət üzvlərinə bu barədə mənim tərəfimdən müvafiq göstəriş verilib ki, Azərbaycan və İtaliya dünəndən strateji tərəfdaşlar kimi əlaqələrimizin tarixində yeni səhifə açıblar. Avropa məkanında İtaliya bizim üçün bir nömrəli tərəfdaş ölkədir və tam əminəm ki, eyni tərəfdaşlıq biznes sahəsində də olmalıdır. İtaliya şirkətləri Azərbaycanda dövlət xətti ilə həyata keçirilən və keçiriləcək layihələrdə ön sıralarda olmalıdırlar. Biz bunu arzulayırıq. Əminəm ki, İtaliya şirkətlərinin də marağı bizim marağımızla üst-üstə düşür. İnanıram ki, biznes forum bu istiqamətdə önəmli addım olacaqdır.

Göstərilən qonaqpərvərliyə görə bir daha həm Prezident Mattarellaya, həm Baş Nazir Konteyə, nazir Di Mayoya dərin təşəkkürümü bildirirəm. İtaliya xalqına daimi firavanlıq və xoşbəxtlik arzulayıram. Sağ olun.

İlham Əliyevin İtaliyaya dövlət səfəri

# İtaliya Azərbaycanın birinci ticarət və ixracat tərəfdaşıdır

## Romada Azərbaycan Prezidentinin şərəfinə dövlət ziyafəti verilib















**Fevralın 20-də Romadakı Kuirinale Sarayında İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə dövlət ziyafəti verilib.**

AZƏRTAC xəbər verir ki, ziyafətdə Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da iştirak ediblər.

Ziyafətdən əvvəl qarşılıqlı hədiyyələr təqdim olundu.

Azərbaycan və İtaliya rəsmi nümayəndə heyətlərinin üzvləri dövlət başçıları İlham Əliyevə və Sercio Mattarellaya, Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya və İtaliya Prezidentinin qızı Laura Mattarellaya təqdim olundular.

Dövlət başçıları ziyafətdə çıxış etdilər.

### Prezident Sercio Mattarellanın çıxışı

- Cənab Prezident.

Xanım Birinci vitse-prezident.

Hökumət nümayəndələri.

Xanımlar və cənablar.

Dərin hörmət hissi ilə Sizə və xanımınıza İtaliyaya "Xoş gəlmisiniz!" demək istərdim. Azərbaycan Prezidentinin İtaliyaya ilk dövlət səfəri münasibətilə Sizi müşayiət edən nümayəndə heyəti ilə birlikdə qəbul etməkdən çox məmnunam. Xüsusilə də mənə Azərbaycanda göstərdiyiniz səmimi qonaqpərvərliyə görə minnətdaram. Parlaq xatırladığım Azərbaycan səfərimdən iki il sonra Sizin burada Prezident Sarayında olmağınız ölkələrimizi birləşdirən yüksək səviyyəli əlaqələrin əhəmiyyətli göstəricisidir. Sürətlə möhkəmlənən və şaxələnən bu münasibətlər mütəmadi və məhsuldar əlaqələrə təkan verərək yalnız qurumlar, hökumətlər və müəssisələr arasında deyil, həmçinin mədəni və akademik reallıqlar arasında da inkişafa səbəb olmuşdur.

Sizin səfəriniz Sovet İttifaqından tam ayrılma prosesinin başlanğıcını qoyan və yaddaşlardan heç zaman silinməyən, tarixin acı səhifəsi olan Qara Yanvar faciəvi hadisələrinin baş verdiyi tarixdən 30 il sonraya təsadüf edir. Müstəqilliyini bərpa etdikdən sonra üçüncü onillik ərəfəsində Azərbaycan regionun ən inkişaf edən ölkələrindən biri və mədəniyyətlər, etnik qruplar və fərqli dinlərin birgəyaşayış modeli kimi özünü təsdiq etmişdir. Burada kökləri keçən əsrin əvvəlində dünyada qadınlara seçki hüququ verən ilk ölkələrdən biri olan Azərbaycan Xalq Cümhuriyyətinin qısa, lakin çox əhəmiyyətli tarixi təcrübəsinə dayanan tolerantlıq nümunəsi və fərqlilik içində sülh şəraitində birgəyaşayışdan söhbət gedir.

Cənab Prezident, 25 ildən çoxdur ki, mövcud olan diplomatik əlaqələr çərçivəsində İtaliya və Azərbaycan arasındakı münasibətlər müstəsna inkişafa nail olmuşdur. Bu, həmçinin öz baxışlarını Avro-Aralıq dənizi məkanına yönəldən və balanslaşdırılmış geosiyasi mövqeyinə görə güclü olan Bakının seçimi sayəsində mümkün olmuşdur.

Azərbaycanın Xəzər dənizi və Aralıq dənizi arasında körpü rolu oynaması digər tərəfdən də bu gün "Cənub qaz dəhlizi"nin tamamlanmasına güclü təsir edir. Belə ki, TAP layihəsinin yekunlaşması ilə Azərbaycan qazı İtaliyaya nəql ediləcək. Bu da Avropa İttifaqının enerji siyasətinin əsası olan marşrutların və mənbələrin şaxələndirilməsi üçün önəmli bir göstəricidir. Bu siyasəti xarakterizə edən seçimləri hər zaman dəstəkləyən İtaliya Brüssel ilə yeni tərəfdaşlıq sazişinin imzalanması vasitəsilə Azərbaycan və Avropa İttifaqı arasında əlaqələrin daha da möhkəmlənməsinə müsbət baxır. Eyni istiqamətdə Bakı və Atlantik Tərəfdaşlıq Şurası arasındakı Aralıq dənizi sahəsində bütün maraqlı ölkələr üçün həyati əhəmiyyətə malik olan və sabitləşməyə töhfə verən sərfəli əməkdaşlıq davam edir. Azərbaycan və Avropa arasında əlaqələrin möhkəmlənməsi fərqli mədəniyyətlər və dinlərin daha ahəngdar birgəyaşayışı üçün əlverişli şəraitin yaranmasına imkan verə bilər.

Cənab Prezident, Azərbaycan öz enerji ehtiyatları ilə keçən əsrdə dünyada gedən əhəmiyyətli modernləşmə prosesinin baş qəhrəmanı oldu. Bu gün İtaliya Respublikası Sizin rəhbərliyinizlə Azərbaycanın iqtisadi, mədəni və sosial inkişaf yolunda addımlamasına dərin hörmət hissi ilə baxır. Qlobal səviyyədə birinci ticari tərəfdaş kimi Roma Sizin idarəetməniz sayəsində başladılan iqtisadiyyatın şaxələndirilməsi prosesində Azərbaycan Respublikasının yanında olmaq niyyətindədir və ətraf mühitin qorunmasına yönəldilmiş texnoloji innovasiyalara açıq elmi və sənaye yenilikləri ilə töhfə verməyə hazırdır.

Bundan əlavə, illərdir ki, ölkələrimiz çoxtərəfli sahələrdə, xüsusən də ikitərəfli əməkdaşlığımızda əhəmiyyətli şəkildə seçilən energetika və sənaye sektorlarında, həmçinin mədəni və sosial əhəmiyyətli təşəbbüslər daxil olmaqla, bir sıra uğurlu əməkdaşlıqlara imza atmışdır.

Xüsusi məmnunluq hissi ilə qeyd etmək istərdim ki, italyan dili və mədəniyyəti artan marağa səbəb olur. Mən inanıram ki, elm, texnologiya və təhsil sahələrində bağlanmış sazişlər bizim xalqlarımız arasında mövcud olan qarşılıqlı anlaşmanı və dostluğu daha da gücləndirəcək.

Bu axşamkı konsert yalnız Azərbaycan yaradıcılığının qeyri-adiliyini deyil, həmçinin Azərbaycan və İtaliya arasında mövcud dərin mədəni oxşarlıqları bir daha sübut edir. Təsadüfi deyil ki, proqram islam dünyasında ilk opera olan, keçən əsrin əvvəllərində Bakıda səhnələşdirilən və elə o dövrdən etibarən bizim mədəniyyətlərin yüksək sintezini ifadə edən, görkəmli bəstəkar Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" əsərinin məşhur bir parçası ilə başlayacaq.

Cənab Prezident, ölkələrimiz arasında əlaqələrin inkişaf perspektivləri geniş və dərin panoramaya malikdir. Sizin tarixi əhəmiyyətli dövlət səfəriniz də əminəm ki, bunu daha da gücləndirməklə strateji sektorlarda əməkdaşlığı inkişaf etdirərək Bakı və Roma arasında dostluğun təşviqinə töhfə verəcək.

Sizə, xanımınıza və Sizi müşayiət edən nümayəndə heyətinə bir daha "Xoş gəlmisiniz!" deyirəm.

### Prezident İlham Əliyevin çıxışı

- Hörmətli cənab Prezident.

Hörmətli xanım Laura Mattarella.

Hörmətli xanımlar və cənablar.

İlk növbədə, məni İtaliyaya dövlət səfərinə dəvət etdiyinizə, eləcə də mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə, cənab Prezident, Sizə minnətdarlığımı bildirirəm.

Azərbaycan və İtaliya arasında əlaqələrin zəngin tarixi vardır. Ən azı 30 min ildən artıq yaşı olan petroqliflərin yerləşdiyi və UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil olunmuş Qobustan Dövlət Tarixi Qoruğu ərazisindəki qayalar üzərində Roma İmperiyası legionlarının bizim eradan əvvəl I əsrə aid latınca yazıları vardır. Bu yazılar Roma İmperiyası legionlarının Azərbaycan ərazisində olduğunu sübut edir. İtalyan səyyahı Marko Polo öz əsərlərində Azərbaycandan bəhs etmişdir. XV əsrdə Azərbaycan Ağqoyunlu dövləti ilə Venesiya Respublikası arasında siyasi, diplomatik əlaqələr qurulmuşdur. 1469-1478-ci illərdə Venesiya Respublikasının Azərbaycanda səfirliyi fəaliyyət göstərmişdir. Həmin dövrdə Azərbaycan ilə Neapol Krallığı arasında təmaslar mövcud olmuşdur. Müsəlman aləmində ilk parlament respublikası olan, 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti dövründə də Azərbaycan və İtaliya arasında diplomatik münasibətlər yaradılmışdır. İtaliyanın Bakıda diplomatik təmsilçiliyi fəaliyyət göstərmişdir. 1972-ci ildə Azərbaycanın paytaxtı Bakı və İtaliyanın Neapol şəhərləri qardaşlaşmış elan edilmişlər. Hazırda Azərbaycan və İtaliya arasında əməkdaşlıq bütün sahələrdə uğurla inkişaf edir.

Cənab Prezident Sercio Mattarellanın 2018-ci ildə Azərbaycana rəsmi səfəri əlaqələrimizin inkişafına mühüm töhfə vermişdir. Səfər zamanı Mehriban Əliyevanı və məni İtaliyanın yüksək dövlət ordenləri ilə təltif etməyinizi Azərbaycan və İtaliya arasında dostluğun inkişafına verdiyimiz töhfənin təzahürü kimi qiymətləndiririk.

Cənab Prezident, bu gün biz Sizinlə olduqca səmərəli görüş keçirdik. Bu görüşümüz zamanı müzakirə olunan məsələlər iki ölkə arasındakı münasibətlərin strateji mahiyyətini təsdiqləyir. Dövlət səfəri çərçivəsində 20-dən çox sənədin imzalanması nəzərdə tutulur. Onların sırasında Azərbaycan və İtaliya arasında "Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə"ni xüsusi olaraq qeyd etmək istərdim. Bu sənəd münasibətlərimizi daha yüksək səviyyəyə qaldıracaqdır. "Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə"də Azərbaycan və İtaliya bir-birinin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinə dəstəyi bir daha təsdiqləyirlər. Sənəddə, həmçinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin bu prinsiplər əsasında həlli ilə əlaqədar birmənalı mövqe əks olunub. Bu prinsiplər BMT Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi və təcavüzkar Ermənistanın qoşunlarının Azərbaycanın işğal olunmuş bütün torpaqlarından çıxarılmasını tələb edən qətnamələri ilə uzlaşır. Uzun illərdir ki, Ermənistan Azərbaycanın ərazilərini işğal etmiş, etnik təmizləmə aparmış, bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Münaqişə beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

İqtisadi sahədə qarşılıqlı faydalı əməkdaşlığımız davamlı olaraq genişlənir, ticarət dövriyyəmiz yüksək səviyyədədir, İtaliya Azərbaycanın birinci ticarət və ixracat tərəfdaşıdır. 2019-cu ildə İtaliya ilə ümumi ticarət dövriyyəmiz 6 milyard dollardan artıq olmuşdur. İtaliyanın Cənubi Qafqaz ölkələri ilə ticarətinin 92 faizi Azərbaycanın payına düşür. Uzun illərdir ki, Azərbaycan İtaliya istehlakçılarını xam neftlə təchiz edir. İtaliyada istehlak olunan neftin 17 faizi ölkəmizin payına düşür. Keçən il Azərbaycan İtaliyanın ən böyük xam neft təchizatçısı olub. Azərbaycanın təşəbbüsü ilə reallaşan və Avropanın ən böyük infrastruktur layihələrindən olan "Cənub qaz dəhlizi"nin həyata keçirilməsində Azərbaycan İtaliya ilə sıx əməkdaşlıq edir. "Cənub qaz dəhlizi"nin son seqmenti olan TAP yekunlaşmaq üzrədir.

Mədəniyyət sahəsində münasibətlərimiz uğurla inkişaf edir. 2012-ci ildə Romanın görkəmli Villa Borgeze parkında dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsinin açılışı olmuşdur. Hazırda Azərbaycan Dillər Universitetində italyan dili tərcüməsi ixtisası və italyan dili mərkəzi fəaliyyət göstərir. İtaliya Avropada azərbaycanlı tələbələrin ali təhsil aldığı əsas ölkələrdən biridir.

İtaliya qədim sivilizasiyanın beşiyidir. İtalyan mədəniyyəti, incəsənəti, kino sənəti Azərbaycanda çox sevilir. Çoxlu sayda Azərbaycan vətəndaşı hər il İtaliyaya turistik səfərlər edir. Son üç il ərzində İtaliyadan ölkəmizə gələn qonaqların səfər dinamikasında 40 faizdən çox artım qeydə alınmışdır.

Hörmətli cənab Prezident və hörmətli xanım Laura Mattarella, ölkənizə və dost İtaliya xalqına əmin-amanlıq, inkişaf və tərəqqi arzulayıram.

# İtaliyada Azərbaycan Mədəniyyət İlinin açılışı münasibətilə konsert proqramı təqdim olunub

**Fevralın 20-də Romadakı Kuirinale Sarayında "2020-ci il - İtaliyada Azərbaycan Mədəniyyət İli"nin açılışı münasibətilə konsert proqramı təqdim olunub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, İtaliya Respublikasının Prezidenti Sercio Mattarella və qızı Laura Mattarella konsert proqramını dinləyiblər.

Konsertdə Azərbaycan Dövlət Kamera Orkestri görkəmli Azərbaycan və İtaliya bəstəkarlarının əsərlərini ifa edib.





İlham Əliyevin İtaliyaya dövlət səfəri

# Prezident İlham Əliyevin Romada rəsmi yolasalma mərasimi olub

**İtaliya Respublikasında dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 21-də Romada rəsmi yolasalma mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, Romanın Kuirinale Sarayında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycanın və İtaliyanın Dövlət himnləri səsləndi.

Fəxri qarovul dəstəsinin rəisi dövlətimizin başçısına raport verdi.

Azərbaycan və İtaliya prezidentləri fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Azərbaycan Prezidenti İlham Əliyevə dövlət səfərindən çəkilmiş fotolardan ibarət albom təqdim olundu.

İtaliya Respublikasının Prezidenti Sercio Mattarella və qızı Laura Mattarella Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı yola saldılar.








# Bakı və Roma arasında imzalanmış bəyannamə əlaqələrin inkişafı üçün geniş imkanlar yaradacaq

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 21-də Roma şəhərinin meri xanım Vircinia Raggi ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə Prezident İlham Əliyev İtaliyaya dövlət səfərinin nəticələrindən çox məmnun olduğunu bildirdi. Səfər çərçivəsində 25-dən çox sənədin imzalandığını vurğulayan dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan və İtaliya strateji tərəfdaşlardır. Bu strateji tərəfdaşlıq münasibətləri əlaqələrimizin bütün sahələrini əhatə edəcək.

Prezident İlham Əliyev səfər çərçivəsində keçirilən görüşlərin çox səmərəli olduğunu vurğuladı. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan ilə İtaliya arasında əlaqələr çox yüksək səviyyədədir. O cümlədən Azərbaycan ilə İtaliya arasında mədəni sahədə əməkdaşlıq və şəhərlərarası əlaqələr də inkişaf edir. 1972-ci ildə Bakı və Neapol qardaşlaşmış şəhərlər elan edilib. 2012-ci ildə Romanın Villa Borgeze parkında dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsinin açılışı olub. Bundan başqa, Roma şəhərində Azərbaycan Mədəniyyət Mərkəzi fəaliyyətə başlayacaq.

Azərbaycan Prezidenti vurğuladı ki, Bakı və Roma arasında imzalanacaq bəyannamə şəhərlərimiz arasında əlaqələrin inkişafı üçün geniş imkan yaradacaq. Eyni zamanda digər şəhərlərimiz arasında da belə əməkdaşlıq əlaqələri var.

Xanım mer Vircinia Raggi Romada arxeoloji qazıntılara verdiyi dəstəyə görə Azərbaycana təşəkkürünü bildirdi və bunu yüksək qiymətləndirdiklərini dedi. O, Bakı və Roma şəhərləri arasında əməkdaşlığı bundan sonra da davam etdirmək niyyətində və əzmində olduqlarını vurğuladı. Mer həmçinin vurğuladı ki, 2020-ci ilin İtaliyada Azərbaycan Mədəniyyət İli elan edilməsi ilə əlaqədar Roma şəhərində də çoxsaylı tədbirlər keçiriləcək.

Görüşdən sonra dövlətimizin başçısı və Roma meri şəhərin qədim ərazisinin qalıqlarına baxdılar.

Dövlətimizin başçısı Roma meriyasının Xatirə kitabına ürək sözlərini yazdı.

Qeyd edək ki, 2014-cü ilin iyulunda Prezident İlham Əliyevin İtaliyaya rəsmi səfəri zamanı Azərbaycanın Mədəniyyət Nazirliyi ilə Roma şəhər meriyası arasında saziş imzalanıb. Bu saziş "Mercati di Traiano" muzeyinin yerləşdiyi ərazidə arxeoloji qazıntı işlərinin aparılmasına maliyyə vəsaitinin ayrılmasını nəzərdə tuturdu.

Dövlətimizin başçısına görülən işlər barədə məlumat verildi. Diqqətə çatdırıldı ki, qazıntı işləri zamanı tarixi, arxeoloji dəyər kəsb edən çox əhəmiyyətli tapıntılar əldə edilib.

Qazıntı zamanı əldə edilən tapıntılar Prezident İlham Əliyevə təqdim olundu.

Bildirildi ki, Roma şəhərinin sakinləri sazişə əsasən görülən işləri və əldə edilən tapıntıları çox yüksək qiymətləndirirlər və buna görə minnətdarlıq edirlər.

Sonra Prezident İlham Əliyevin iştirakı ilə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi ilə Roma şəhər meriyası arasında əməkdaşlıq haqqında bəyannamə imzalandı.

Bəyannaməni Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Roma şəhərinin meri xanım Vircinia Raggi imzaladılar.











# Romada Azərbaycan Mədəniyyət Mərkəzi üçün nəzərdə tutulan bina ilə tanışlıq





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 21-də Romada Azərbaycan Mədəniyyət Mərkəzi üçün nəzərdə tutulan bina ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, bina ilə tanışlıq zamanı dövlətimizin başçısına və birinci xanıma məlumat verildi ki, burada Azərbaycan Mədəniyyət Mərkəzinin, həmçinin səfirliyimizin fəaliyyəti üçün hərtərəfli şəraitin yaradılması nəzərdə tutulur.

Binada yüksək səviyyədə təmir-bərpa işlərinin aparılması planlaşdırılır.

Prezident İlham Əliyev binanın əsaslı təmir layihəsi və görüləcək işlərlə bağlı tapşırıq və tövsiyələrini verdi.



# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Romada FAO-nun yeni baş direktoru ilə görüşüb

Fevralın 21-də Heydər Əliyev Fondunun vitse-prezidenti, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) xoşməramlı səfiri, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva FAO-nun yeni baş direktoru Qu Donqyu ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, FAO-nun Romadakı baş ofisində keçirilən görüşdə əvvəlcə Leyla Əliyeva Qu Donqyunu yeni vəzifəyə təyin olunması münasibətilə təbrik etdi və ona gələcək fəaliyyətində uğurlar arzuladı.

Söhbət əsnasında Azərbaycanda dayanıqlı kənd təsərrüfatının inkişafı perspektivləri, FAO-nun bu istiqamətdə göstərdiyi səylər, eləcə də ekoloji maarifləndirmə, sağlam və məsuliyyətli ərzaq istehlakı və kənd yerlərinin inkişafı üzrə ikitərəfli əməkdaşlıq məsələləri müzakirə edildi.

Leyla Əliyeva FAO-nun Azərbaycanda kənd təsərrüfatı, meşəçilik və balıqçılıq üzrə həyata keçirilən mühüm layihələrini yüksək qiymətləndirdi və ölkəmizdə bu sahələrin inkişafına verilən töhfəyə görə minnətdarlığını bildirdi.

Qu Donqyu öz növbəsində Azərbaycanın regionun lider dövləti kimi BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində əhəmiyyətli rola malik olduğunu qeyd etdi.

Həmçinin görüşdə "Sıfır aclıq" qlobal məqsədinin icra vəziyyəti, içməli suyun keyfiyyəti və çatışmazlığı məsələləri müzakirə edildi, dünyada aclığın aradan qaldırılması və qida təhlükəsizliyinin təmin edilməsi üzrə mümkün tərəfdaşlığa dair fikir mübadiləsi aparıldı.

Görüşün sonunda Leyla Əliyeva FAO-nun baş direktoru Qu Donqyunu Azərbaycana səfərə dəvət etdi.







## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident.

Bu il fevralın 9-da Azərbaycan Respublikası parlamentinə növbədənkənar seçkilərin müvəffəqiyyətlə keçirilməsi ilə əlaqədar səmimi təbriklərimi qəbul edin.

Səmərəli dövlət idarəçiliyi, iqtisadiyyatın davamlı modernləşdirilməsi, vətəndaşların rifah səviyyəsinin yüksəldilməsi, dövlətin ardıcıl xarici siyasəti növbədənkənar parlament seçkilərində Sizin başçılıq etdiyiniz Yeni Azərbaycan Partiyasının qələbəsini şərtləndirən amillər olub.

Əminəm ki, seçkilərdə əldə olunmuş nəticələr Azərbaycan Respublikasının hərtərəfli inkişafı üçün müəyyənləşdirilmiş kursa, habelə Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) çərçivəsində çoxşaxəli əməkdaşlığın daha da möhkəmlənməsinə və inkişafına töhfə verəcək.

ŞƏT-in müşahidəçilər missiyası seçki prosesinin monitorinqinin aparıldığı dövrdə ona yaradılmış şəffaf və demokratik mühitə, hərtərəfli dəstəyə görə dərin təşəkkürünü bildirir.

Bu xoş fürsətdən istifadə edərək, Sizə və yaxınlarınıza yeni-yeni nailiyyətlər, yenilməz güc, ruh yüksəkliyi, firavanlıq, rifah və möhkəm cansağlığı, Azərbaycan xalqına sülh və tərəqqi arzu edirəm.

*Dərin hörmətlə,*

***Vladimir NOROV,***
***Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi***

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Ölkə daxilində mühüm siyasi hadisələrdən biri olan parlament seçkilərinin müvəffəqiyyətlə keçirilməsi münasibətilə Sizi və qardaş Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edirəm.

Çox şadam ki, Sizin qətiyyətli fəaliyyətiniz sayəsində Azərbaycan Respublikası öz layiqli yerini tapıb, siyasi və iqtisadi sahələrdə uğurla inkişaf edir.

Tam əminəm ki, ölkələrimiz arasında sıx dostluq və qardaşlıq münasibətləri Sizin dəstəyinizlə bundan sonra da möhkəmlənəcək və xalqlarımızın firavanlığına və inkişafına kömək edəcək.

Hörmətli İlham Heydər oğlu, 2020-ci ildə Qırğız Respublikasına Sizin rəsmi səfərinizi səbirsizliklə gözləyirəm.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə uğurlar, qardaş Azərbaycan xalqına sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

***Sooronbay JEENBEKOV,***
***Qırğız Respublikasının Prezidenti***

# Yeni Azərbaycan Partiyasının könüllülərinin toplantısı keçirilib

Fevralın 21-də YAP İcra Katibliyində Yeni Azərbaycan Partiyasının könüllülərinin toplantısı keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədovun, partiyanın İdarə Heyətinin və Siyasi Şurasının üzvlərinin iştirak etdiyi toplantıda əvvəlcə Yeni Azərbaycan Partiyasının könüllülərinin fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Sonra çıxış edən YAP Gənclər Birliyinin sədri Seymur Orucov bildirib ki, Azərbaycanın sürətli inkişafı, ictimai həyatın bütün sahələrində əldə etdiyi nailiyyətlər dövlət gənclər siyasətində də özünü bariz şəkildə göstərir. Onun sözlərinə görə, Prezident İlham Əliyevin uğurlu siyasətinin ən mühüm istiqamətlərindən biri cəmiyyətin fəal təbəqəsi olan gənclərin yüksək dövlət qayğısı ilə əhatə olunmasıdır. Ümumiyyətlə, Azərbaycanda həyata keçirilən gənclər siyasəti özünün mütərəqqiliyi ilə fərqlənir, başqa sözlə, dünyada nümunə kimi çıxış edir. Öz növbəsində Azərbaycan gəncləri də ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəal iştirak edirlər. Ən əsası Azərbaycan gəncləri ölkəmizin milli maraqlarının keşiyində durublar, öz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirirlər.





S.Orucov deyib ki, bu gün ölkəmizi beynəlxalq miqyasda uğurla təmsil edən, eyni zamanda respublikamızın ictimai-siyasi, iqtisadi həyatında fəal rol oynayan Azərbaycan gəncləri vətənpərvər, yüksək intellektli, milli-mənəvi dəyərlərinə, tarixi köklərinə, dövlətə və Vətənə sadiq olmaqla yanaşı, ictimai-siyasi məsələlərlə bağlı əsl vətəndaşlıq mövqeyindən çıxış edərək yüksək fəallıq və təşəbbüskarlıq göstərirlər. O qeyd edib ki, ölkəmizdə gənclər siyasətinin səmərəliliyini təmin edən mühüm amillərdən biri könüllülük fəaliyyətinə xüsusi diqqətin göstərilməsidir. "Könüllülük insanları vahid məqsəd ətrafında birləşdirən, vətəndaş, cəmiyyət və dövlətin birgə fəaliyyətinin ən uğurlu formatlarından biridir. Könüllülük həm də vətənpərvərlik məktəbi, öz xalqına, dövlətinə, milli-mənəvi dəyərlərə bağlılıq və xidmət örnəyidir. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın fəaliyyətində könüllülər hərəkatına böyük önəm verilir. Dövlət başçısı tərəfindən 2020-ci ilin ölkəmizdə "Könüllülər ili" elan olunması bunun bariz ifadəsidir",- deyə S.Orucov vurğulayıb.

YAP Gənclər Birliyinin sədri partiyanın gənclərinin də könüllülər hərəkatında və çoxsaylı layihələrdə fəal iştirak etdiklərini diqqətə çatdırıb. S.Orucov bu prosesdə partiyanın rəhbərliyinin gənc könüllülərə lazımi dəstək verdiyini söyləyib.

Tədbirdə, həmçinin YAP Gəncə Şəhər Təşkilatı Gənclər Birliyinin sədri Kamran Abbasov, YAP Tərtər Rayon Təşkilatı Gənclər Birliyinin sədri Turanə Məmmədzadə, YAP Ucar Rayon Təşkilatı Gənclər Birliyinin sədr müavini İnci Əhmədzadə və YAP Oğuz Rayon Təşkilatı Gənclər Birliyinin sədri Elşən Alcansoy çıxış edərək Prezident İlham Əliyev tərəfindən 2020-ci ilin Azərbaycanda "Könüllülər ili" elan olunmasının əhəmiyyətini bildirib, YAP könüllülərinin fəaliyyətindən ətraflı bəhs ediblər.

Sonda YAP-ın könüllüləri müxtəlif nominasiyalar üzrə mükafatlandırılıblar.

# İtaliyada Azərbaycan ili

***Əvvəli 1-ci səh.***

İtaliya Prezidenti Sercio Mattarella iki ölkə arasındakı əlaqələri və bu səfəri belə dəyərləndirdi: "İtaliya ilə Azərbaycan arasında əlaqələrin inkişaf perspektivləri geniş və dərin panoramaya malikdir. Azərbaycan Prezidentinin İtaliyaya tarixi əhəmiyyətli dövlət səfəri bunu daha da gücləndirməklə strateji sektorlarda əməkdaşlığı inkişaf etdirərək Bakı və Roma arasında dostluğun təşviqinə töhfə verəcək".

İtaliya Prezidenti həmçinin 2020-ci ilin ölkəsində "Azərbaycan ili" elan olunduğunu söyləyərək vurğuladı ki, bu, əlaqələri, dostluğu və əməkdaşlığı artırmağa kömək edəcək və iki ölkə arasında münasibətləri daha da intensivləşdirəcək.

Xatırladaq ki, 2 il öncə - 2018-ci ildə İtaliya Prezidenti Sercio Mattarella Azərbaycana səfər etmişdi. Həmin səfər zamanı mühüm sənədlər imzalanmışdı.

Prezident İlham Əliyev bildirdi ki, həmin səfər iki ölkənin gələcək əməkdaşlığına çox güclü təkan verib. Səfər zamanı əldə edilmiş bütün razılaşmalar bu gün həyatda öz əksini tapır.

Azərbaycan Prezidentinin İtaliyaya növbəti səfəri çərçivəsində isə İtaliya və Azərbaycan arasında 28 sənəd imzalandı. Onlardan ən önəmlisi isə Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə idi. Cənab İlham Əliyev bu sənədi dəyərləndirərkən vurğuladı ki, bu bəyannamədə, əslində, Azərbaycanla İtaliyanın strateji tərəfdaşlığının gələcək istiqamətləri müəyyən edilir. Bu, çox dərin və müfəssəl sənəddir və həm siyasi, həm iqtisadi, mədəni, humanitar, bütün sahələri əhatə edən bir bəyannamədi. Eyni zamanda sənəddə İtaliya və Azərbaycanın beynəlxalq təşkilatlar çərçivəsində bir-birinə dəstək göstərməsi haqqında da müddəa var. Bu da yaxın, dost ölkələr, müttəfiqlər arasında olan bir məsələdir.

Bu sənəd ikitərəfli münasibətlərin yeni mərhələyə qədəm qoyduğunu bir daha təsdiqləyir. Bəyannamədə beynəlxalq təşkilatlar çərçivəsində bir-birinə dəstək göstərilməsi haqqında müddəanın nəzərdə tutulması İtaliya və Azərbaycanın yaxın dost, müttəfiq ölkələr olduğunu göstərir. Bu sənəddə İtaliya və Azərbaycanın bir-birinin ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərin toxunulmazlığına hörmətlə yanaşdığı və bunu dəstəklədiyi vurğulanıb. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Helsinki Yekun Aktı, BMT və ATƏT tərəfindən qəbul edilmiş qətnamə və qərarların əsasında həllinə dəstək ifadə olunub. İtaliya Azərbaycanın ərazi bütövlüyünü, münaqişənin ədalətli və beynəlxalq hüquq əsasında həllini dəstəkləyir.

Enerji sektoru və Azərbaycanın sərhədlərindən kənarda maliyyələşdirdiyi enerji layihələri ilə bağlı İtaliya şirkətləri dəyəri 10 milyard ABŞ dollarına yaxın olan müqavilələr imzalayıblar. Qeyri-enerji sektorunda bu rəqəm 700 milyon dollardır.

Prezident İlham Əliyevin İtaliyanın ən böyük maliyyə-bank qurumu olan "Cassa Depositi Prestiti SpA"nın və bu ölkənin dünya səviyyəsində məşhur olan 10-dan çox ən iri, aparıcı sənaye və maliyyə qruplarının rəhbərləri ilə görüşü Azərbaycanın xarici iqtisadi əlaqələrinin inkişaf etdirilməsi, ölkəmizə yeni investisiya axınının təmin edilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Azərbaycan İtaliyanın bir sıra aparıcı şirkətləri ilə uzun illərdir sıx əməkdaşlıq edir, bəzi şirkətlər ölkəmizlə işləməyi planlaşdırır.

Dünən keçirilən İtaliya-Azərbaycan biznes forumunda səslənən fikirlərə əsasən deyə bilərik ki, iki ölkə arasındakı iqtisadi əlaqələr getdikcə daha da genişlənəcək. Beləliklə, Azərbaycan iqtisadiyyatına sərmayə yatıracaq İtaliya şirkətlərinin sayı artacaq.

Bir sözlə, Prezident İlham Əliyevin İtaliyaya dövlət səfəri iki ölkə üçün uğurlu oldu. Dövlətimizin başçısı bu səfəri 2 il əvvəl Prezident Mattarellanın ölkəmizə səfərindən sonra güclənmiş fəal dialoqun davamı adlandırdı.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Fevralın 21-də Təhsil naziri Ceyhun Bayramov Kürdəmir şəhərindəki Yeni Azərbaycan Partiyası Kürdəmir Rayon Təşkilatının qərargahında Göyçay və Kürdəmir rayon sakinlərini qəbul edib.

Təhsil Nazirliyindən bildiriblər ki, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2020-ci ilin fevral ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq keçirilən qəbulda həmin rayonlarda müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

Nazir vətəndaşların müraciət və təkliflərini diqqətlə dinləyib, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin müvafiq aidiyyəti qurumlarının rəhbərlərinə konkret tapşırıqlar verib.

Qəbulda vətəndaşlar əsasən müəllimlərin işə qəbulu və yerdəyişməsi, məktəb binalarının əsaslı təmir və tikintisi, təhsil haqqı və digər məsələlərlə bağlı müraciət ediblər.

***

Fevralın 21-də Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev Hacıqabul rayonunda vətəndaşları fərdi qaydada qəbul edib.

Vətəndaşlar qəbul zamanı məşğulluq, özünüməşğulluq proqramı və peşə hazırlığına cəlbedilmə, əlilliyin qiymətləndirilməsi, reabilitasiya, sosial təminat, əmək hüquqlarının müdafiəsi və s. məsələlərlə bağlı müraciət ediblər.

Nazirliyin aidiyyəti struktur bölmələrinin məsul şəxslərinin iştirakı ilə hər bir müraciətlə bağlı müvafiq tədbirlər görülüb. Bir sıra vətəndaşların işlə təminatı məqsədilə onlara vakant iş yerlərinə göndərişlər verilib, eləcə də ödənişli ictimai işlərə cəlb edilmələri tapşırılıb.

Habelə ayrı-ayrı vətəndaşların özünüməşğulluq proqramına, peşə hazırlığına, sosial xidmətlərə cəlb edilmələri üçün müvafiq işlərin aparılması qərara alınıb. Əlilliyin qiymətləndirilməsi, sosial təminat və s. ilə bağlı müraciətlərdə qaldırılan bəzi məsələlər araşdırılması üçün qeydiyyata götürülüb.

Həmçinin Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Anar Kərimov Saatlı rayonunda və Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Vüsal Nəsirli Şirvan şəhərində vətəndaşları fərdi qaydada qəbul ediblər.

***

Səhiyyə naziri Oqtay Şirəliyev fevralın 21-də İmişli Mərkəzi Rayon Xəstəxanasında vətəndaşların qəbulunu keçirib.

Səhiyyə Nazirliyinin Mətbuat xidmətindən bildirilib ki, qəbul zamanı nazir Oqtay Şirəliyev Saatlı və İmişli rayon sakinlərinin sağlamlıq problemlərini, işlə təminat və s. məsələlərlə bağlı müraciətlərini dinləyib.

Vətəndaş müraciətlərində qaldırılan məsələlər nazirliyin müvafiq qurumlarının əməkdaşlarının iştirakı ilə araşdırılıb. Müraciətlərin bəziləri yerindəcə həllini tapıb.

Nazirliyin səlahiyyətlərinə aid olmayan məsələlər aidiyyəti üzrə çatdırılması üçün qeydiyyata alınaraq nəzarətə götürülüb.

***

Fevralın 21-də Ali Məhkəmənin sədri Ramiz Rzayev Ağsu Rayon Məhkəməsinin inzibati binasında vətəndaşları qəbul edib.

Qəbulda hər bir vətəndaş diqqətlə dinlənilib. Müraciətlərdə qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb. Digər məsələlər üzrə Ali Məhkəmənin aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması ilə bağlı Azərbaycan Prezidenti tərəfindən yaradılmış şəraitdən razılıqlarını ifadə ediblər.

***AZƏRTAC***

Qarabağ uğrunda müharibənin başlanmasından 32 il keçir

# SƏBRİN HÜDUDU VARMI, ALLAHIM?!

*Əvvəli 1-ci səh.*

**Səbrin özün boydadırsa, onda vay bizim halımıza!**

Demirik gəl bizim yerimizə müharibə et!

Əstəğfürullah!

*Axı hər şeyin əvvəli olduğu kimi, sonu da olmalıdır!*

*Səbir də əbədi ola bilməz!*

Meşəlidə, Cəmillidə, Qaradağlıda, Bağanis-Ayrımda dolmayan səbir kasası niyə Xocalıda daşmadı!

20 min şəhid azdımı?

32 ildir qurban verə-verə gedirik, kifayət deyilmi?!

❖ ❖ ❖

7 rayon qurban getdi...

Hələ də səbir edirsən...

Biz də sənin kimi...

Milyondan çox qoca, qadın, uşaq evsiz-eşiksiz qalaraq düzlərə töküldü, çadır şəhərciklərində məskunlaşdı...

Normal insanların yaşaya bilməyəcəyi şəraitdə yaşamalı oldu...

Nə yeməyə çörək tapdı, nə işləməyə iş...

Qışda soyuqdan, yayda istidən əziyyət çəkdi...

**Dözdü... çünki başqa çarəsi yox idi!**

**Nəydi onların günahı, ALLAHIM!**

Axı içlərində minlərlə uşaq, dil açmamış körpə, sənin varlığını dərk edəcək yaşa çatmayanları da vardı!

*Onlar hansı günaha bata bilərdilər, necə günah iş tutardılar ki, belə zillətə düşdülər?!*

*Ermənininin xoşu gələn torpaqda, göz dikdiyi ərazidə yaşamaq günah sayılırmı?!*

*Axı o torpağı, o vətəni onlara sən qismət etmişdin?!*

❖ ❖ ❖

Biz sənin ətəyini necə buraxa bilərik?

Yapışmağa başqa ətək yoxdur!

Biz səndən necə ümidimizi üzə bilərik?

Ümidsiz yaşamaq çətindir, bəlkə də mümkün deyil!

Sənə necə güvənməyə bilərik?

Sovet hökuməti yetmiş il ərzində səni danmağa çağırdı, amma faydası olmadı!

Ürəyimizin dərinliyində qoruyub saxladıq səni!

**Niyə bizi yiyəsiz qoymusan?**

**Niyə zalımın zülmünün əvəzini vermirsən?**

**Niyə bu qədər səbirli və dözümlüsən?**

*Axı yaratdıqlarının ömrü onlara sənin qədər səbirli olmaq imkanı vermir!*

*Axı vətənə qayıtmaq həsrətilə yaşayanların sayı ilbəil yox, günbəgün azalır!*

*Axı əmanət qəbirlərin sayı aybaay artır, çoxalır!*

Daha səbir etməyə əcəl də macal vermir!









❖ ❖ ❖

Bəlkə səbrini rəhmlə əvəz edəsən?

Bəlkə düşmənin burnunu ovasan?

Bəlkə düşmənin arxasında duranları yerlə-yeksan edəsən?

**Axı qaçqın da insandır!**

**Axı onu da sən yaratmısan!**

Lap adını "məcburi köçkün" qoysaq da!

Lap adını "miqrant" qoysaq da!

*Axı yaratdıqlarının hamısının insan kimi yaşamağa haqqı var!*

❖ ❖ ❖

Hamının müqəddəs bildiyi Kəbə evi bizim payımıza düşüb!

Dünyanın sonuncu, tarixi şəxsiyyət kimi seçdiyin peyğəmbəri bizə sən qismət etmisən!

Dinlərin cavanı, inkişafda olanı islam sayılır!

Di gəl ki, ona "terror dini" damğası vururlar, "terrorçu" deyiləndə barmaqla saqqallı müsəlmanı göstərirlər!

*Göydə sənin etmədiyin ayrı-seçkiliyi yerdəkilər artıq ənənəyə çeviriblər!*

*"Ərəb baharı", "demokratiya" arzusu ölkələri viranə qoydu!*

*Qeyri-islamçıların maliyyəsi və silahı ilə islam bayrağı altında müsəlman qırğınları törədənlərin vəhşiliyi və qəddarlığı heç bir əndazəyə sığmır!*

Çörək dalınca düşmən qapısına gedənləri dənizlərdə boğur, tikanlı məftillərlə yollarını kəsir, itlərlə qarşılayır, sığınacaqlarına od vururlar!

**Hamının sığınacaq axtardığı "Allah evləri" vaxtaşırı partladılır, ibadətə gələnlərin qanına bulaşır!**

**Bu evləri kim qorumalıdır?!**

**Allahın adı ilə Allahsızlıq edənləri kim cəzalandırmalıdır?!**

Dinlərarası ayrı-seçkiliyə kim son qoymalıdır!

*Bu sualların cavabını kimdən öyrənək, Allahım?!*

*Ay sənə qurban olum!*

**BƏNDƏN KİMİ DAİM İTAƏTİNDƏYİK:**

- yoluna həmişə sadiqik;
- məscidlərin qapıları hamının üzünə açıqdır;
- bütün dindarların öz məbədləri, ibadətgahları var;
- hər il minlərlə adam Həcc ziyarətinə gedir;
- fəaliyyətdə olan məscidlərin sayı 2 mini keçib;
- qoşa minarəli yeni, möhtəşəm Bibiheybət məscidi tikildi;
- dörd minarəli, əzəmətli Heydər məscidi inşa edildi;
- XV əsrdən qalan Şamaxı məscidi təmir olunaraq yenidən fəaliyyətə başladı;
- hər il dövlət başçısının rəhbərliyi, bütün dinlərin nümayəndələrinin iştirakı ilə Ramazan süfrəsi verilir;
- dövlətimiz xəstələrə, yetim-yesirə, imkansıza daim arxa durur!

**Daha nə edək ki, sənə xoş gəlsin, bizə rəhm edəsən, torpaqlarımızı qaytarmağa kömək göstərəsən, ALLAHIM?!**

Bu minnət deyil, ALLAHIM, bu yalvarışdır!

Bu, etiraz deyil, səbri tükənməkdə olan bəndənin fəryadıdır, Allahım!

Bu, ədalətsizlikdən cana doyan insanların ədalət hayqırtısıdır, Allahım!

Bu, torpağı əsir alınaraq ölümə məhkum edilən xalqın sənə xitabı, səndən kömək ummasıdır!

**Həm də sənin böyüklüyünə və ədalətinə bir daha sığınmasıdır...**

**Bəxtiyar SADIQOV**

# Azərbaycanın ərazi bütövlüyünün bərpa ediləcəyi gün uzaqda deyil

Bu gün Dağlıq Qarabağ münaqişəsinin başlanmasından 32 il ötür. 1988-ci il fevralın 22-dən - Əli Hacıyevin və Bəxtiyar Quliyevin Əsgəranda şəhid olduqları gündən bütün dünyanın gözü qarşısında cəlb edildiyimiz və hələ də bitməyən ədalətsiz savaş başladı. Bu məkrli ssenarini düşmən çoxdan həyata keçirməyə çalışırdı...

Ötən əsrin 40-cı illərində A.Mikoyanın təşəbbüsü ilə Ermənistanda gizli "Qarabağ komitəsi" yaradılmışdı. SSRİ rəhbərliyinə hər vasitə ilə təsir etməyə çalışan ermənilər 1945-ci ilin payızında növbəti dəfə Dağlıq Qarabağı onlara vermək məsələsini sovet hökuməti qarşısında qaldırmış və həmin il noyabrın 28-də Moskvadan Azərbaycan K(b)P MK-nın birinci katibi M.C.Bağırova göndərilən məktubda bu məsələyə onun rəyi istənilmişdi. Bu iddiaların heç bir elmi və tarixi əsasının olmadığını bildirən M.C.Bağırov əhalisinin əksəriyyəti azərbaycanlılardan ibarət olan Şuşa rayonundan başqa, Qarabağın dağlıq hissəsinin Ermənistana verilməsinə o şərtlə razılığını vermişdi ki, müxtəlif dövrlərdə Ermənistana və digər qonşu respublikalara verilmiş tarixi torpaqlar Azərbaycana qaytarılsın. Şübhəsiz ki, nə sovet rəhbərliyi, nə də ermənilər buna razı olmazdılar.

50-ci illərin ortalarında A.Mikoyanın və M.Suslovun təşəbbüsü ilə növbəti dəfə Dağlıq Qarabağın Ermənistana verilməsi məsələsi qaldırıldı, Ermənistanda antiazərbaycanlı təbliğatı yenidən qızışdırıldı. Lakin ölkədə 30-dan çox milli münaqişə ocağının olduğunu nəzərə alan sovet rəhbərliyi bu məsələnin arzuolunmaz nəticələr verəcəyini başa düşərək problemi Azərbaycanın xeyrinə həll etdi. 1958-ci ildə isə bütün ermənilərin katalikosu II Vazgen Bakıya səfər edərək Dağlıq Qarabağın Ermənistana verilməsini, Bakıda erməni ruhani seminariyasının açılmasını, erməni kilsəsindən hər səhər zəng vurulmasını təklif etdi. Lakin rədd cavabı aldı. 60-cı illərin ortalarında Ermənistan SSR-də növbəti dəfə antiazərbaycanlı hərəkat qızışdı. Qondarma "erməni soyqırımı"nın 50 illiyi, cəllad Andronikin 100 illiyi Ermənistanda geniş qeyd edildi və bu, öz doğma torpaqlarında yaşayan azərbaycanlıların daha da sıxışdırılmasına, Dağlıq Qarabağ Muxtar Vilayətində erməni millətçiliyinin açıq surətdə dərin kök salmasına yeni təkan verdi.

Ulu Öndər Heydər Əliyev 1969-cu ildə respublikaya rəhbər seçiləndən sonra ilk gündən Dağlıq Qarabağla bağlı xüsusi siyasət yürütdü. 1967-ci ildə DQMV ərazisində üç azərbaycanlının avtomobilinin içində yandırılması nəticəsində başlayan milli qarşıdurma elementlərini büruzə verən separatizm qığılcımlarının nəticəsini əvvəlcədən görən ölkə rəhbəri qətiyyətli addımlar atdı. Vilayət rəhbəri, şovinist V.Şahnazaryan başqası ilə əvəzləndi, hüquq mühafizə orqanlarında ciddi təmizləmə aparıldı. 1973-cü ilin avqustunda Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsi "erməni millətçiləri" adlı əməliyyat keçirərək Daşnaksütyun təşkilatı ilə bağlı olan bir qrup şəxsi həbs etdi.

Ermənilər 1977-ci ildə SSRİ Konstitusiyası və 1978-ci ildə Azərbaycan SSR Konstitusiyası qəbul edilərkən də Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı iddialar qaldıraraq Moskvaya, SSRİ mərkəzi orqanlarına kütləvi ərizələrlə müraciət etməyə başladılar. O zaman Sovet İttifaqı KP MK-nın baş katibi L.Brejnevlə görüşən Heydər Əliyev erməni şovinistlərinin Dağlıq Qarabağla bağlı əsassız iddialarını puça çıxardı.

Heydər Əliyev ermənilərin bütün məkrli planlarının qarşısını almışdı. Bu isə 1985-ci ildən SSRİ-yə rəhbərlik edən M.Qorbaçova qətiyyən sərf etmirdi. Onun sovet hakimiyyətinə rəhbərliyindən sonra azərbaycanlılara qarşı erməni ekspansiyasının növbəti mərhələsi başladı. 1987-ci ilin sonlarından İrəvanda Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi tələbləri ilə kütləvi aksiyaların keçirilməsinə başlandı. 1987-ci ilin noyabr ayında Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri, erməni akademik A.Aqanbekyan Fransanın "Humanite" qəzetinə verdiyi müsahibəsində DQMV-nin Ermənistana birləşdirilməsinin iqtisadi baxımdan düzgünlüyünü sübut etməyə çalışmışdı. Bu müsahibə separatizm meyillərinin aşkar büruzə verilməsi üçün siqnal rolunu oynadı.

Həmin ərəfədə artıq DQMV ərazisində separatçı "Krunk" təşkilatı yaradılmışdı və onun üzvləri 1988-ci il yanvar ayının əvvəllərində yardım almaq üçün Moskvaya getmişdilər. Artıq separatçılıq dalğasının başlaması üçün ideoloji-təbliğat işi böyük vüsət alırdı. 1988-ci ilin yanvar ayınadək Qarabağ münaqişəsinin yeni mərhələsinin startı üçün bütün hazırlıq yekunlaşmışdı. Heydər Əliyevin ittifaq rəhbərliyindən uzaqlaşdırılması ilə mərkəzdə ermənilərin xeyrinə dəyişən balans problemin həllində Moskvanın birbaşa olaraq ermənipərəst mövqe tutacağını şərtləndirmişdi.

Fevral ayından Xankəndidə Ermənistandan xalq deputatları qismində vilayətə gələn emissarların təşkilatçılığı ilə mitinqlər başladı. İlk dəfə olaraq bu mitinqlərdə "saqqallılar" adlanan xüsusi hərbi dəstənin üzvləri də göründü. Rəsmi Bakının isə tərəddüd göstərməsi vəziyyətin daha da gərginləşməsinə şərait yaradırdı. Elə bu ərəfədə İrəvandan "miatsum" - birləşmək iddiasını hüquqiləşdirmək barədə təlimat gəldi və təşəbbüs artıq vilayətin qanunverici orqanının əlinə keçdi. Fevralın 20-də çağırılan vilayətin Xalq Deputatları Sovetinin fövqəladə iclasında gündəliyə yalnız bir məsələnin - DQMV-nin Ermənistana birləşdirilməsi ilə bağlı təklifin müzakirəsi çıxarıldı. Kvorum olmadan keçirilən iclasda Ermənistan SSR Ali Sovetinin deputatları, əsasən isə vilayət yazıçılar ittifaqının sədri V.Akopyanın təzyiqi ilə DQMV-nin Azərbaycan SSR-in tabeliyindən çıxarılaraq Ermənistan SSR-in tərkibinə daxil olması barədə qərar qəbul edildi. Bu, Azərbaycanın ərazi bütövlüyünə təhlükə və SSRİ Konstitusiyasına zidd olmaqla, həm də ittifaq miqyasında separatizm meyillərinin aydın təcəssümü idi.

1988-ci ildə erməni separatçılarının qısa müddət ərzində qazandığı uğurların əsas səbəbi Moskvadan aldıqları genişyönümlü dəstək olsa da, rəsmi Bakının nümayiş etdirdiyi susqunluq və laqeyd münasibət də məlum proseslərin nəzarətdən çıxmasını şərtləndirdi. Prosesin baş verdiyi ilk günlərdə vilayətin erməni əhalisində böyük qorxu hissi var idi. Onlar hələ də Azərbaycana qarşı birbaşa çıxış etməkdən qorxurdular. Hətta Ermənistandan gəlmiş saqqallılar onları zorla, döyə-döyə mitinqə gətirəndə də oranı yarımçıq tərk edirdilər. Əgər Azərbaycan rəhbərliyi vəziyyətə müdaxilə etmək istəsəydi və vilayət ərazisində əsrlər boyu yaşayan yerli azərbaycanlı əhalinin düşmənin müqavimətinə qarşı səfərbər olmasını təmin edə bilsəydi, separatçılığın qarşısını elə fevralın birinci həftəsində almaq olardı.

Azərbaycan rəhbərliyi sussa da, Qarabağ əhalisi bələd olduğu erməni məkrini dayandırmaq üçün səfərbər olundu. Hadisələrin ən qızğın vaxtında - fevral ayının 22-də Ağdamın minlərlə sakini Əsgəran üzərinə yürüşə çıxdı. Ancaq bu yürüşün qarşısı Bakıdan göndərilmiş emissarlar vasitəsilə alındı, hətta yürüş iştirakçıları təqib də edildi. İndiyədək 5 mindən artıq övladını vətən yolunda şəhid vermiş Ağdam məhz həmin gün Qarabağ münaqişəsinin ilk şəhidlərini - Əli ilə Bəxtiyarı torpaq və millət uğrunda fəda etdi.

Fevralın 22-də qadağalara baxmayaraq Bakıda da ilk ümumxalq mitinqi keçirildi. Xalq Moskvadan ədalətli olmasını, problemə son qoyulmasını istəyirdi. Ölkə rəhbərliyindən tələb olunurdu ki, Qarabağda baş verən hadisələr xalqdan gizlədilməsin, hakimiyyət problemin ciddiliyini qəbul edib tədbir görsün, Qarabağda insanları silah-sursatla təmin etsin. Əli ilə Bəxtiyarın dəfn günü bütün Azərbaycanın ürəyi Ağdamda döyünürdü. Ətraf və uzaq rayonlardan Ağdamın dərdinə şərik olmağa gələnlərin sayı minlərlə idi.

Bütün bunlardan sonra DQMV ətrafında siyasi vəziyyət olduqca gərginləşdi. 1988-ci ilin may ayında eyni gündə Azərbaycan və Ermənistan kommunist partiyalarının qurultayları keçirildi. Bakıdakı və Yerevandakı qurultaylarda müvafiq olaraq Siyasi Büronun üzvləri və Mərkəzi Komitənin katibləri olan Yeqor Liqaçovla Aleksandr Yakovlev iştirak etdilər. Y.Liqaçov Bakıda bəyan etdi ki, Moskva Azərbaycanın ərazi bütövlüyünə hörmətlə yanaşdığından Qarabağın müstəqilliyinə heç vaxt razılaşmaz. A.Yakovlev isə Yerevanda bildirdi ki, xalqların öz müqəddəratını təyinetmə hüququna hörmətlə yanaşan rəsmi Moskva Qarabağı Ermənistanın tərkibində görür. Eyni gündə qarşı duran tərəflərə belə "tərəfkeşlik" etməklə M.Qorbaçov və erməni lobbisinin digər qulları nəticədə münaqişəni hərbi müstəviyə keçirdilər. 1988-ci ilin sonlarından isə Ermənistandakı azərbaycanlıların kütləvi deportasiyası başladı.

1989-cu ilin yanvarında SSRİ Ali Sovetinin Rəyasət Heyəti "Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi idarə formasının tətbiq edilməsi haqqında" fərman verdi. Fərmana əsasən Dağlıq Qarabağın Azərbaycanın tərkibində muxtar vilayət statusu saxlanılmaqla, Moskvaya tabe olan xüsusi idarə forması yaradıldı. A.Volskinin rəhbərlik etdiyi Xüsusi İdarə Komitəsi vilayətin Azərbaycanın yurisdiksiyasından çıxarılması üçün bütün vasitələrdən istifadə etdi. Bu şəxs DQMV-nin tam iqtisadi müstəqilliyini reallaşdırmaq üçün vilayət ərazisindəki bütün müəssisələrin artıq Azərbaycanda deyil, Ermənistanda yerləşən müəssisələrlə iqtisadi əlaqələr qurmasını təmin edən sərəncamlar verdi və bunu qısa müddət ərzində həyata keçirdi. Bu antiazərbaycançı fəaliyyətin reallaşmasında onun fəal "köməkçisi" isə Azərbaycanın rəhbəri Ə.Vəzirov idi. Bu "missiyanı" A.Mütəllibov da davam etdirərək Qarabağın Azərbaycandan təcridinə şərait yaratdı.

1991-ci ilə qədər Dağlıq Qarabağda və eləcə də Ermənistanla həmsərhəd rayonlarda azərbaycanlılar yaşayan kəndləri işğal edən, qırğınlar, soyqırımlar törədən ermənilər SSRİ-nin dağılmasından sonra işğal planını yeni fazaya keçirdilər. Güclü himayəçilərinə arxalanan ermənilər, həm də müstəqilliyimizin ilk illərində Azərbaycanda hakimiyyəti ələ keçirən iqtidarların səbatsızlığından və yaratdıqları şəraitdən istifadə edərək Dağlıq Qarabağı və ona bitişik rayonları işğal etdilər. Bu gün Dağlıq Qarabağ bütün dünyada rəsmən Azərbaycan ərazisi kimi tanınır. Lakin erməni təəssübkeşliyinin və bundan irəli gələn ikili standartların nəticəsi olaraq beynəlxalq ictimaiyyət, xüsusən Qərb dünyası ermənilərin işğalçılıq siyasətinə, Azərbaycan ərazilərinin hələ də işğal altında qalmasına göz yumur. Azərbaycanın isə səbri tükənməz deyil. Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində sürətlə inkişaf edən respublikamız hərbi qüdrətini sürətlə artırır və hər addımda, - istər siyasi, istər hərbi baxımdan, - Ermənistanı dalana dirəyib. Bütün bunlar isə bizi inamla son nəticəyə - işğal edilmiş Dağlıq Qarabağın və ətraf rayonların azad edilməsinə, Azərbaycanın ərazi bütövlüyünün tam təmin edilməsinə aparır.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

## QƏRAR № 29/325

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 18 fevral 2020-ci il tarixli 275 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 114 saylı Şəki kənd birinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Məmmədov Osman Abdukərim oğlu 2020-ci il fevralın 18-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək səsvermə günü adıçəkilən seçki dairəsinin bəzi seçki məntəqələrində qanun pozuntularına yol verildiyini iddia etmiş, bu pozuntuların araşdırılmasını və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilərək rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Daxil olmuş müraciət nəzərdən keçirilərkən müəyyən olunmuşdur ki, şikayət seçki qanunvericiliyində nəzərdə tutulmuş müddət ötürülməklə verilmiş və bu səbəbdən də ekspert qrupunun üzvü müraciətin geri qaytarılması barədə rəy vermişdir.

Seçki Məcəlləsinin 112.1-ci maddəsinə əsasən seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilər.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 4-cü hissəsinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 114 saylı Şəki kənd birinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Məmmədov Osman Abdukərim oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 18 fevral 2020-ci il tarixli 275 saylı müraciəti qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürülməklə verildiyindən ərizəçiyə geri göndərilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*21.02.2020-ci il*

## QƏRAR № 29/326

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasını Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 18 fevral 2020-ci il tarixli 284 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 91 saylı Ucar seçki dairəsi üzrə qeydə alınmış namizəd Məmmədov Əbil Abbas oğlu 2020-ci il fevralın 18-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciətilə həmin seçki dairəsi dairə seçki komissiyasının 17 fevral 2020-ci il tarixli 13/41 saylı qərarını mübahisələndirərək seçki dairəsi üzrə seçkilərin nəticələrinin ləğvi barədə qərar qəbul olunmasını xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Ərizəçi müraciətində səsvermə günü 91 saylı Ucar seçki dairəsinin seçki məntəqələrində səsvermə günü qanun pozuntularına yol verildiyini, həmin pozuntularla bağlı dairə seçki komissiyasına təqdim edilmiş müraciətin və digər sənədlərin düzgün araşdırılmadığını iddia edərək həmin seçki dairəsi üzrə səsvermənin nəticələrinin ləğvini tələb etmişdir.

Namizədin araşdırmada və Mərkəzi Seçki Komissiyasının iclasında iştirakı təmin edilmişdir.

91 saylı Ucar seçki dairəsinin dairə seçki komissiyası mübahisələndirilən qərarını onunla əsaslandırmışdır ki, namizəd Ə.A.Məmmədovun müraciətində səsvermə günü seçki məntəqələrindəki qanun pozuntuları ilə bağlı iddiaları hərtərəfli araşdırılmış və nəticədə səsvermənin keçirilməsi və ya nəticələrin rəsmiləşdirilməsi zamanı seçki məntəqələri üzrə seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən qanun pozuntuları aşkarlanmadığından müraciət əsassız hesab olunaraq təmin edilməməlidir.

Araşdırma ilə əlaqədar sosial şəbəkələrdə yayılan görüntülər nəzərdən keçirilərkən, səsvermə prosesində, səslərin hesablanmasında və nəticələrə dair protokolların tərtib edilməsində bu və ya digər şəkildə seçkilərin nəticəsinə təsir edə biləcək hallar yalnız 18 və 38 saylı seçki məntəqələrində müşahidə edilmişdir ki, bu da seçicilərin iradəsini müəyyən etməyə imkan verməyən pozuntu kimi qiymətləndirilməlidir.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından mübahisələndirilən məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair protokolları alınaraq onlara baxış keçirilmişdir. Baxış nəticəsində həmin seçki məntəqələrinin səsvermənin nəticələrinə dair protokollarındakı məlumatlarda uyğunsuzluqlar aşkarlanmamışdır. Araşdırma zamanı bu və ya digər formada seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən pozuntular müəyyən edilməmişdir.

Araşdırma zamanı müəyyən edilmişdir ki, səsvermə günü iki seçki məntəqəsi istisna olmaqla, seçki dairəsinin mübahisələndirilən digər seçki məntəqələrində baş verməsi iddia edilən qanun pozuntuları təsdiqini tapmamış, seçicilər sərbəst şəkildə səs verərək öz iradələrini ifadə etmiş, məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair yekun protokolları Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq tərtib olunmuş və bu baxımdan dairə seçki komissiyası düzgün nəticəyə gəlmişdir.

Səsvermə günü seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntularının araşdırılması məqsədi ilə müşahidə aparmış müxtəlif seçki subyektlərindən alınmış izahatlardan müəyyən edilmişdir ki, iki seçki məntəqəsi istisna olmaqla, həmin pozuntuları təsdiq edən hər hansı bir fakt aşkarlanmamışdır.

Beləliklə, Ə.A.Məmmədovun müraciəti qismən təmin edilməli, 18 və 38 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız hesab olunmalı, dairə seçki komissiyasının 17 fevral 2020-ci il tarixli 13/41 saylı qərarı 18 və 38 saylı seçki məntəqələri üzrə hissədə ləğv edilməli, qalan hissədə isə dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci, 170-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 91 saylı Ucar seçki dairəsi üzrə qeydə alınmış namizəd Məmmədov Əbil Abbas oğlunun 18 fevral 2020-ci il tarixli 284 saylı müraciəti qismən təmin edilsin, 18 və 38 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız hesab edilsin.

2. Dairə seçki komissiyasının 17 fevral 2020-ci il tarixli 13/41 saylı qərarı 18 və 38 saylı seçki məntəqələri üzrə hissədə ləğv edilsin, digər hissədə isə dəyişdirilmədən saxlanılsın.

3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*21.02.2020-ci il*

## QƏRAR № 29/327

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 17 fevral 2020-ci il tarixli 261 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 28 saylı Sabunçu üçüncü seçki dairəsi üzrə qeydə alınmış namizəd Süleymanlı Aygün Yunis qızı 2020-ci il fevralın 18-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının (dairə seçki komissiyası) 17 fevral 2020-ci il tarixli 13/87 saylı qərarını mübahisələndirmiş və seçki dairəsi üzrə seçkilərin nəticələrinin ləğvi barədə qərar qəbul olunmasını xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

A.Y.Süleymanlı müraciətində səsvermə günü 28 saylı Sabunçu üçüncü seçki dairəsinin seçki məntəqələrində qanun pozuntularının baş verdiyini, həmin seçki məntəqələrinin bəzilərində pozuntuları təsdiq edən video görüntülərin olduğunu iddia edərək seçki dairəsi üzrə seçkilərin nəticələrinin etibarsız hesab olunmasını xahiş etmişdir.

Araşdırma ilə bağlı şikayətçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onun araşdırma və Komissiyanın iclasında iştirakı təmin olunmuşdur.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından müvafiq sənədlər alınaraq araşdırma materiallarına əlavə edilmiş və təkrarən araşdırılmışdır.

A.Y.Süleymanlının müraciətinin araşdırılması zamanı səsvermə günü seçki dairəsinin seçki məntəqələrində baş vermiş qanun pozuntuları ilə əlaqədar sosial şəbəkələrdə yerləşdirilmiş görüntülər və namizəd tərəfindən təqdim olunmuş digər seçki materialları əhatə edilmişdir.

İddia edilən pozuntularla əlaqədar olaraq namizəd A.Y.Süleymanlı dairə seçki komissiyasına müraciət etmiş, komissiya tərəfindən onun şikayəti araşdırılmış, dairə seçki komissiyasının 17 fevral 2020-ci il tarixli 13/87 saylı qərarı ilə müraciət əsassız hesab edilərək təmin olunmamışdır.

Araşdırma zamanı namizədin mübahisələndirdiyi seçki məntəqələri üzrə müvafiq seçki subyektlərindən, o cümlədən səsvermə günü həmin seçki məntəqələrində səsvermə prosesini müşahidə etmiş müşahidəçilər, məntəqə seçki komissiyalarının sədrləri, katibləri, üzvləri, qeydə alınmış digər namizəd, vəkil edilmiş şəxslər, səlahiyyətli nümayəndələr tərəfindən verilmiş izahatlarda iddia edilən qanun pozuntuları öz təsdiqini tapmamışdır.

Sosial şəbəkələrdə paylaşılan video görüntülərin araşdırılması zamanı seçki məntəqələrində seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən pozuntular aşkar edilməmişdir.

Göstərilənlərə əsasən müraciət təmin edilməməli, dairə seçki komissiyasının mübahisələndirilən qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 112-ci, 112-1-ci, 170-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 28 saylı Sabunçu üçüncü seçki dairəsi üzrə qeydə alınmış namizəd Süleymanlı Aygün Yunis qızının müraciəti təmin edilməsin, dairə seçki komissiyasının 17 fevral 2020-ci il tarixli 13/87 saylı qərarı dəyişdirilmədən saxlanılslın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*21.02.2020-ci il*

## QƏRAR № 29/328

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 fevral 2020-ci il tarixli 309 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 111 saylı Zaqatala - Balakən seçki dairəsi üzrə qeydə alınmış namizəd Rəsulzadə Rəhman Çingiz oğlu 2020-ci il fevralın 19-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək səsvermə günü adıçəkilən seçki dairəsinin bəzi seçki məntəqələrində qanun pozuntularına yol verildiyini iddia etmiş, bu pozuntuların araşdırılmasını və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, müraciətin aidiyyət qaydalarının pozulması ilə daxil olmasına dair rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməlidir, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə və yuxarıda göstərilən Təlimatın 8.6-cı bəndinə uyğun olaraq müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 4-cü hissəsinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 111 saylı Zaqatala - Balakən seçki dairəsi üzrə qeydə alınmış namizəd Rəsulzadə Rəhman Çingiz oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 fevral 2020-ci il tarixli 309 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*21.02.2020-ci il*

## QƏRAR № 29/329

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 18 fevral 2020-ci il tarixli 279 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 32 saylı Suraxanı üçüncü seçki dairəsi üzrə qeydə alınmış namizəd Baxışov Elçin Niyaz oğlu 2020-ci il fevralın 18-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının (dairə seçki komissiyası) 14 fevral 2020-ci il tarixli 25/82 saylı qərarını mübahisələndirmiş və seçki dairəsi üzrə seçkilərin nəticələrinin ləğv olunması barədə qərar qəbul edilməsini xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

E.N.Baxışov müraciətində səsvermə günü 32 saylı Suraxanı üçüncü seçki dairəsinin 1, 2, 3, 4, 5, 6, 7, 8, 9, 10, 11, 12, 13, 14, 15, 16, 17, 18, 19, 20, 21, 22, 23, 24, 25, 26, 27, 28, 29, 30 və 31 saylı seçki məntəqələrində qanun pozuntularının baş verdiyini, həmin seçki məntəqələrinin bəzilərində pozuntuları təsdiq edən video görüntülərin olduğunu iddia edərək seçki dairəsi üzrə seçkilərin nəticələrinin etibarsız hesab olunmasını xahiş etmişdir.

E.N.Baxışov müraciətində səsvermə günü 32 saylı Suraxanı üçüncü seçki dairəsinin seçki məntəqələrində qanun pozuntularının baş verdiyini, həmin seçki məntəqələrinin bəzilərində pozuntuları təsdiq edən video görüntülərin olduğunu iddia edərək seçki dairəsi üzrə seçkilərin nəticələrinin etibarsız hesab olunmasını xahiş etmişdir.

Araşdırma ilə bağlı şikayətçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onun araşdırma və komissiyanın iclasında iştirakı təmin olunmuşdur.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından müvafiq sənədlər alınaraq araşdırma materiallarına əlavə edilmiş və təkrarən araşdırılmışdır.

E.N.Baxışov müraciətinin araşdırılması səsvermə günü seçki dairəsinin seçki məntəqələrində baş vermiş qanun pozuntuları ilə əlaqədar sosial şəbəkələrdə yerləşdirilmiş görüntülər və namizəd tərəfindən təqdim olunmuş digər seçki materiallarını əhatə etmişdir.

İddia edilən pozuntularla əlaqədar namizəd E.N.Baxışov dairə seçki komissiyasına müraciət etmiş, komissiya tərəfindən onun şikayəti araşdırılmış, dairə seçki komissiyasının 14 fevral 2020-ci il tarixli 25/82 saylı qərarı ilə müraciət əsassız hesab edilərək təmin olunmamışdır.

Araşdırma zamanı namizədin mübahisələndirdiyi seçki məntəqələri üzrə müvafiq seçki subyektlərindən, o cümlədən səsvermə günü həmin seçki məntəqələrində səsvermə prosesini müşahidə etmiş müşahidəçilər, məntəqə seçki komissiyalarının sədrləri, katibləri, üzvləri, qeydə alınmış digər namizəd, vəkil edilmiş şəxslər, səlahiyyətli nümayəndələr tərəfindən verilmiş izahatlarda iddia edilən qanun pozuntuları öz təsdiqini tapmamışdır.

Sosial şəbəkələrdə paylaşılan video görüntülərin araşdırılması zaman seçki məntəqələrində seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən pozuntular aşkar edilməmişdir.

Göstərilənlərə əsasən müraciət təmin edilməməli, dairə seçki komissiyasının mübahisələndirilən qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 112-ci, 112-1-ci, 170-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 32 saylı Suraxanı üçüncü seçki dairəsi üzrə qeydə alınmış namizəd Baxışov Elçin Niyaz oğlunun 18 fevral 2020-ci il tarixli 279 saylı müraciəti təmin edilməsin, dairə seçki komissiyasının 14 fevral 2020-ci il tarixli 25/82 saylı qərarı dəyişdirilmədən saxlanılslın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*21.02.2020-ci il*

## QƏRAR № 29/332

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 18 fevral 2020-ci il tarixli 278 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 60 saylı Salyan - Neftçala seçki dairəsi üzrə qeydə alınmış namizəd Qurbanova Aytən Nizami qızı 2020-ci il fevralın 18-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının 16 fevral 2020-ci il tarixli 14/35 saylı qərarını mübahisələndirmiş, həmin qərarın ləğv edilməsini və pozulmuş hüquqlarının bərpa edilməsini xahiş etmişdir.

Müraciətin araşdırılması qanunvericilikdə nəzərdə tutulmuş qaydada Mərkəzi Seçki Komissiyası nəzdində ekspert qrupunun üzvünə həvalə edilmişdir. Müraciətlə bağlı əlavə araşdırmanın zəruri olması ilə əlaqədar ekspert qrupunun üzvü tərəfindən Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-1.10-cu maddəsinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 7.8-ci bəndinə uyğun olaraq araşdırma müddətinin uzadılması barədə vəsatət qaldırılmışdır. Vəsatət onunla əsaslandırılmışdır ki, iş üzrə təqdim olunmuş əlavə məlumatların öyrənilməsi və müraciətdə göstərilən halların tam, hərtərəfli və obyektiv araşdırılması məqsədi ilə araşdırma müddətinin artırılması zəruridir.

Vəsatət əsaslı olduğundan təmin edilməli, əlavə araşdırılma aparılması üçün müddət 3 gün artırılmalıdır.

Yuxarıda qeyd edilənləri əsas götürərək Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci və 112-1.10-cu maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 9.6-cı bəndinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 60 saylı Salyan - Neftçala seçki dairəsi üzrə qeydə alınmış namizəd Qurbanova Aytən Nizami qızının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 18 fevral 2020-ci il tarixli 278 saylı müraciətinin araşdırılması müddəti 3 gün artırılsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*21.02.2020-ci il*

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

## QƏRAR № 29/330

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 18 fevral 2020-ci il tarixli 270 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 81 saylı Beyləqan seçki dairəsi üzrə qeydə alınmış namizəd Məmmədov Anar Sədrəddin oğlu və digərləri 2020-ci il fevralın 18-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının (dairə seçki komissiyası) 16 fevral 2020-ci il tarixli 19/42 saylı qərarını mübahisələndirmiş və seçki dairəsi üzrə seçkilərin nəticələrinin ləğvi barədə qərar qəbul olunmasını xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

A.S.Məmmədov və digərləri müraciətlərində səsvermə günü 81 saylı Beyləqan seçki dairəsinin 3, 6, 14, 18, 20, 26, 33, 35 saylı seçki məntəqələrində qanun pozuntularının baş verdiyini, həmin seçki məntəqələrinin bəzilərində pozuntuları təsdiq edən video görüntülərin olduğunu iddia edərək seçki dairəsi üzrə seçkilərin nəticələrinin etibarsız hesab olunmasını xahiş etmişdir.

A.S.Məmmədov və digərləri müraciətlərində səsvermə günü 81 saylı Beyləqan seçki dairəsinin seçki məntəqələrində qanun pozuntularının baş verdiyini, həmin seçki məntəqələrinin bəzilərində pozuntuları təsdiq edən video görüntülərin olduğunu iddia edərək seçki dairəsi üzrə seçkilərin nəticələrinin etibarsız hesab olunmasını xahiş etmişdir.

Araşdırma ilə bağlı şikayətçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onun araşdırma və komissiyanın iclasında iştirakı təmin olunmuşdur.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından müvafiq sənədlər alınaraq araşdırma materiallarına əlavə edilmiş və təkrarən araşdırılmışdır.

A.S.Məmmədov və digərlərinin müraciətinin araşdırılması səsvermə günü seçki dairəsinin seçki məntəqələri üzrə sosial şəbəkələrdə yerləşdirilmiş görüntüləri, məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair dairə seçki komissiyalarına təqdim etdikləri yekun protokolları və namizəd tərəfindən təqdim olunmuş digər seçki materiallarını əhatə etmişdir.

İddia edilən pozuntularla əlaqədar olaraq namizəd A.S.Məmmədov və digərləri dairə seçki komissiyasına müraciət etmiş, komissiya tərəfindən onun şikayəti araşdırılmış, dairə seçki komissiyasının 16 fevral 2020-ci il tarixli 19/42 saylı qərarı ilə müraciət əsassız hesab edilərək təmin olunmamışdır.

Araşdırma zamanı namizədin mübahisələndirdiyi seçki məntəqələri üzrə müvafiq seçki subyektlərindən, o cümlədən səsvermə günü həmin seçki məntəqələrində səsvermə prosesini müşahidə etmiş müşahidəçilər, məntəqə seçki komissiyalarının sədrləri, katibləri, üzvləri, qeydə alınmış digər namizəd, vəkil edilmiş şəxslər, səlahiyyətli nümayəndələr tərəfindən verilmiş izahatlarda iddia edilən qanun pozuntuları öz təsdiqini tapmamışdır.

Sosial şəbəkələrdə paylaşılan video görüntülərin araşdırılması zamanı seçki məntəqələrində seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən pozuntular aşkar edilməmişdir.

Müvafiq məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair yekun protokolları üzrə araşdırmaya zərurət yarandığından, səsvermə günü seçki qanunvericiliyinin tələbinə uyğun olaraq məntəqə seçki komissiyaları tərəfindən tərtib edilmiş, müşahidəçilərə verilmiş və şikayətə əlavə olunmuş 5 ədəd səsvermənin nəticəsinə dair protokol nüsxəsi ilə məntəqə seçki komissiyaları tərəfindən dairə seçki komissiyasına təhvil verilmiş protokolların müqayisəli araşdırılması aparılarkən 31 saylı seçki məntəqəsinin məlumatlarında uyğunsuzluq müəyyən edilmişdir.

Məntəqə seçki komissiyalarından dairə seçki komissiyalarına verilmiş səsvermənin nəticələrinə dair yekun protokolların tədqiqi zamanı 1, 4, 6 saylı seçki məntəqələri üzrə protokolların qanunvericiliyin tələbinə uyğun tərtib olunmaması faktı aşkarlanmışdır.

Göstərilənlərə əsasən müraciət qismən təmin edilməli, seçki dairəsinin 1, 4, 6, 31 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız hesab edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 112-ci, 112-1-ci, 170-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 81 saylı Beyləqan seçki dairəsi üzrə qeydə alınmış namizəd Məmmədov Anar Sədrəddin oğlu və digərlərinin 18 fevral 2020-ci il tarixli 270 saylı müraciəti qismən təmin olunsun, həmin seçki dairəsinin 1, 4, 6, 31 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız hesab edilsin.
2. Dairə seçki komissiyasının 16 fevral 2020-ci il tarixli 19/42 saylı qərarı 1, 4, 6, 31 saylı seçki məntəqələri üzrə hissədə ləğv edilsin, digər hissələrdə dəyişdirilmədən saxlanılslın.
3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*21.02.2020-ci il*

## QƏRAR № 29/331

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 17 fevral 2020-ci il tarixli 237, 238, 239, 18 fevral 2020-ci il tarixli 263, 264, 265, 266, 267, 268, 269 və 273 saylı müraciətlərə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 21 saylı Nəsimi birinci seçki dairəsi üzrə qeydə alınmış namizədlər Mehdiyev Fərhad Sovet oğlu, İsmayılov Toğrul Şahin oğlu, Həsənov Rəşid Cəmşid oğlu, vəkil edilmiş şəxs Manafova İnara Camaləddin qızı, səlahiyyətli nümayəndə Mirzəzadə Səyyad Rüstəm oğlu, məşvərətçi səs hüquqlu üzv Abidova Xədicə Bilal qızı, müşahidəçilər Atakişiyev Tural Həbib oğlu, İbrahimova Vəfa Adıgözəl qızı, Məmmədova Kəmalə Qaraş qızı, Səfərli Aytac Ramiz qızı və Nəsibov Murad Tahir oğlu 2020-ci il fevralın 17-də və 18-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciətlərlə həmin seçki dairəsinin bəzi seçki məntəqələrində səsvermə günü baş vermiş qanun pozuntularının araşdırılmasına dair dairə seçki komissiyasının 15 fevral 2020-ci il tarixli 22/72, 22/73, 22/74, 22/75, 22/76, 22/77, 22/79, 22/80, 22/81, 22/84, 22/86 və 22/87 saylı qərarlarını mübahisələndirmiş, müvafiq qərar qəbul edilməsi yolu ilə pozulmuş hüquqlarının bərpa olunmasını xahiş etmişlər.

Müraciətlər eyni məzmunlu olduğundan və 21 saylı Nəsimi birinci seçki dairəsinin eyni seçki məntəqələrini əhatə etdiyindən bir icraatda birləşdirilmişdir.

Müraciətlər Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvləri tərəfindən araşdırılaraq rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Müraciətlərdə göstərilən halların tam, hərtərəfli və obyektiv araşdırılması, iş üzrə zəruri olan bütün məlumatların öyrənilməsi məqsədi ilə araşdırma müddəti Mərkəzi Seçki Komissiyasının 20 fevral 2020-ci il tarixli 28/316 saylı qərarı ilə artırılmışdır.

Namizədlər F.S.Mehdiyev, T.Ş.İsmayılov, R.C.Həsənov və digərləri müraciətlərində bildirmişlər ki, 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə dairə üzrə əksər seçki məntəqələrində səsvermədə iştirak edən seçicilərin sayının az olmasına baxmayaraq, məntəqə seçki komissiyaları tərəfindən lider namizədin xeyrinə səslər süni şəkildə artırılmış, müşahidəçilərə səsvermənin nəticələrinə dair protokolun surəti təqdim edilməmiş, 1, 7, 11, 13, 19, 21, 23 və 29 saylı seçki məntəqələrində qanun pozuntularına yol verilmişdir

Yuxarıda qeyd olunanlarla əlaqədar namizədlər F.S.Mehdiyev, T.Ş.İsmayılov, R.C.Həsənov və digərləri 21 saylı Nəsimi birinci seçki dairəsi dairə seçki komissiyasına müraciət etmiş, komissiya tərəfindən şikayətlər araşdırılmış, həmin dairə seçki komissiyasının yuxarıda gostərilən müvafiq qərarları ilə müraciətlər əsassız hesab edilərək təmin olunmamışdır.

Araşdırma prosesində ərizəçilərlə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, F.S.Mehdiyev, T.Ş.İsmayılov və R.C.Həsənovun səlahiyyətli nümayəndəsi komissiyanın iclasında iştirak etmişlər.

Dairə seçki komissiyasının mübahisələndirilən qərarları və digər sənədlər araşdırma materiallarına əlavə edilmişdir.

21 saylı Nəsimi birinci seçki dairəsinin dairə seçki komissiyası qeyd edilən qərarlarını onunla əsaslandırmışdır ki, araşdırma ilə seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntuları təsdiqini tapmadığından və səsvermənin keçirilməsi və ya səsvermənin nəticələrinin hesablanması zamanı həmin seçki məntəqələri üzrə seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən qanun pozuntuları aşkarlanmadığından qeydə alınmış namizədlər F.S.Mehdiyev, T.Ş.İsmayılov, R.C.Həsənov və digərlərinin müraciətləri əsassız olduğu üçün təmin edilməməlidir.

Araşdırma zamanı müəyyən edilmişdir ki, səsvermə günü seçki dairəsinin məntəqələrində baş verməsi iddia edilən qanun pozuntuları təsdiqini tapmamış, seçicilər sərbəst şəkildə səs verərək öz iradələrini ifadə etmiş, məntəqə seçki komissiyasının səsvermənin nəticələrinə dair protokolu Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq tərtib olunmuş və bu baxımdan dairə seçki komissiyası düzgün nəticəyə gəlmişdir.

Sosial şəbəkələrdə paylaşılan video görüntülər öyrənilərkən seçki məntəqələrində seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən pozuntular aşkar edilməmişdir.

Hazırkı araşdırma zamanı adıçəkilən məntəqə seçki komissiyalarının üzvlərindən, müxtəlif siyasi partiyaların müşahidəçiləri də daxil olmaqla digər seçki subyektlərindən, o cümlədən qeydə alınmış digər namizədlər Qasımova Pəri Vaqif qızı və Əliyev Kamran Yusif oğlundan müvafiq izahatlar alınaraq nəzərdən keçirilmişdir. Müəyyən edilmişdir ki, 21 saylı Nəsimi birinci seçki dairəsinin əhatə etdiyi seçki məntəqələrində seçki qanunvericiliyinin tələblərinin pozulması halı təsdiqini tapmamışdır.

Göstərilənlərə əsasən müraciətlər təmin edilməməli, dairə seçki komissiyasının mübahisələndirilən qərarları dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 21 saylı Nəsimi birinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Mehdiyev Fərhad Sovet oğlu, İsmayılov Toğrul Şahin oğlu, Həsənov Rəşid Cəmşid oğlu, vəkil edilmiş şəxs Manafova İnara Camaləddin qızı, səlahiyyətli nümayəndə Mirzəzadə Səyyad Rüstəm oğlu, məşvərətçi səs hüquqlu üzv Abidova Xədicə Bilal qızı, müşahidəçilər Atakişiyev Tural Həbib oğlu, İbrahimova Vəfa Adıgözəl qızı, Məmmədova Kəmalə Qaraş qızı, Səfərli Aytac Ramiz qızı və Nəsibov Murad Tahir oğlunun 17 fevral 2020-ci il tarixli 237, 238, 239 saylı və 18 fevral 2020-ci il tarixli 263, 264, 265, 266, 267, 268, 269, 273 saylı müraciətləri əsassız olduğundan təmin edilməsin.
2. Dairə seçki komissiyasının 15 fevral 2020-ci il tarixli 22/72, 22/73, 22/74, 22/75, 22/76, 22/77, 22/79, 22/80, 22/81, 22/84, 22/86 və 22/87 saylı qərarları dəyişdirilmədən saxlanılsın.
3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*21.02.2020-ci il*

## QƏRAR № 29/333

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 18 fevral 2020-ci il tarixli 274 və 285 saylı müraciətlərə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 9 saylı Binəqədi ikinci seçki dairəsi üzrə qeydə alınmış namizədlər Həsənov Ülvi Fəxrəddin oğlu və Bayramov Şəhriyar Nəbi oğlu 2020-ci il fevralın 18-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciətlərlə həmin seçki dairəsi dairə seçki komissiyasının 14 fevral 2020-ci il tarixli 20/17 saylı qərarını mübahisələndirərək seçki dairəsinin əhatə etdiyi bəzi seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab olunmasını və seçki dairəsi üzrə seçkilərin nəticələrinin ləğvi barədə qərar verilməsini xahiş etmişlər.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Namizədlər müraciətlərində səsvermə günü 9 saylı Binəqədi ikinci seçki dairəsinin seçki məntəqələrində səsvermənin nəticələri haqqında protokolların tərtib edilməsi zamanı qanun pozuntularına yol verilməsini bildirmiş, adı seçici siyahısında olmayan şəxslərin səs verməsini, eyni şəxsin bir neçə dəfə səs verməsinə şərait yaradılmasını, səsvermənin nəticələri haqqında protokolların verilməməsini, bir şəxsin bir neçə seçki məntəqəsində səs verdiyini iddia edərək həmin seçki məntəqələri üzrə səsvermənin nəticələrinin ləğv edilməsini tələb etmişlər. Ərizəçilər tərəfindən müraciətlərə 13 protokol nüsxəsi, aktlar, fotoşəkillər və videogörüntülər əlavə olunmuşdur.

Namizədlərin araşdırmada və Mərkəzi Seçki Komissiyasının iclasında iştirakı təmin edilmişdir.

Araşdırmanın nəticəsi olaraq sosial şəbəkələrdə yayılan görüntülər, təqdim edilən fotoşəkillər və video materiallar nəzərdən keçirilərkən səsvermə prosesində, səslərin hesablanmasında və səsvermənin nəticələrinə dair protokolların tərtib edilməsində bu və ya digər şəkildə seçkilərin nəticəsinə təsir edə biləcək hallar müşahidə edilməmişdir.

Dairə seçki komissiyasından mübahisələndirilən məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair protokolları alınaraq baxış keçirilmişdir. Ərizəçi tərəfindən təqdim edilmiş protokol nüsxələrinin müqayisəli araşdırılması nəticəsində 20 saylı seçki məntəqəsinin səsvermənin nəticələrinə dair protokolunda bu və ya digər formada seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən uyğunsuzluqlar müəyyən edilmişdir.

Göstərilən pozuntular seçki qanunvericiliyinin tələblərinə görə seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsi üçün əsas yaratdığından 20 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsi üçün hüquqi əsaslar yaranmışdır.

Seçki Məcəlləsinin 170.2-ci maddəsində göstərilir ki, dairə seçki komissiyası və ya Mərkəzi Seçki Komissiyası birmandatlı seçki dairəsi üzrə aşağıdakı hallarda seçkiləri etibarsız sayır:

- 170.2.1. səsvermə keçirilməsi və ya səsvermənin nəticələrinin müəyyənləşdirilməsi zamanı seçki dairəsi üzrə yol verilən qanun pozuntuları seçicilərin iradəsini müəyyənləşdirməyə imkan vermədikdə;
- 170.2.2. birmandatlı seçki dairəsi üzrə səsvermə zamanı səsvermənin nəticələri etibarsız sayılmış seçki məntəqələrinin sayı həmin seçki dairəsində olan seçki məntəqələrinin ümumi sayının 2/5 hissəsindən çoxunu təşkil etdikdə və ya ləğv edildikdə, o şərtlə ki, həmin seçki məntəqələrində qeydə alınmış seçicilərin sayı seçki dairəsi üzrə qeydə alınmış seçicilərin ümumi sayının 1/4-dən çoxunu təşkil etsin.

Beləliklə, Həsənov Ülvi Fəxrəddin oğlu və Bayramov Şəhriyar Nəbi oğlunun müraciətləri qismən təmin edilməli, 20 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələri etibarsız hesab olunmalı, dairə seçki komissiyasının 14 fevral 2020-ci il tarixli 20/17 saylı qərarı 20 saylı seçki məntəqəsi üzrə hissədə ləğv edilməli, qalan hissələrdə isə dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci, 170-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 9 saylı Binəqədi ikinci seçki dairəsi üzrə qeydə alınmış namizədlər Həsənov Ülvi Fəxrəddin oğlu və Bayramov Şəhriyar Nəbi oğlunun 18 fevral 2020-ci il tarixli 274 və 285 saylı müraciətləri qismən təmin olunsun, 20 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələri etibarsız hesab edilsin.
2. Dairə seçki komissiyasının 14 fevral 2020-ci il tarixli 20/17 saylı qərarı 20 saylı seçki məntəqəsi üzrə hissədə ləğv edilsin, digər hissələrdə isə dəyişdirilmədən saxlanılsın.
3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*21.02.2020-ci il*

## QƏRAR № 29/334

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 18 fevral 2020-ci il tarixli 283 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 105 saylı Tovuz seçki dairəsi üzrə qeydə alınmış namizəd Məmmədov Raul Mirsalam oğlu 2020-ci il fevralın 18-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının 16 fevral 2020-ci il tarixli 20/46 saylı qərarını mübahisələndirmiş, seçki dairəsinin əhatə etdiyi bəzi seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsini və seçki dairəsi üzrə seçkilərin nəticələrinin ləğvi barədə qərar qəbul olunmasını xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Namizəd müraciətində səsvermə günü 105 saylı Tovuz seçki dairəsinin 1, 2, 3, 4, 6, 12, 14, 15, 16, 24, 25, 28, 29, 34, 35, 38, 39 və 41 saylı seçki məntəqələrində səsvermənin nəticələri haqqında protokolların tərtib edilməsi zamanı qanun pozuntularına yol verilməsini bildirmiş, adı seçici siyahısında olmayan şəxslərin səs verməsini, eyni şəxsin bir neçə dəfə səs verməsinə şəraitin yaradılmasını, səsvermənin nəticələri haqqında protokolların verilməməsini, bir şəxsin bir neçə seçki məntəqəsində səs verdiyini iddia edərək həmin seçki məntəqələri üzrə səsvermənin nəticələrinin ləğv olunmasını tələb etmişdir. Ərizəçi tərəfindən müraciətə aktlar, səs yazıları və videogörüntülər əlavə olunmuşdur.

Namizədin araşdırmada və Mərkəzi Seçki Komissiyasının iclasında iştirakı təmin edilmişdir.

Araşdırmanın nəticəsi olaraq sosial şəbəkələrdə yayılan görüntülər, təqdim edilən fotoşəkillər və video materiallar nəzərdən keçirilərkən səsvermə prosesində, səslərin hesablanmasında və səsvermənin nəticələrinə dair protokolların tərtib edilməsində bu və ya digər şəkildə seçkilərin nəticəsinə təsir edə biləcək hallar müşahidə edilməmişdir.

Dairə seçki komissiyasından mübahisələndirilən məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair protokolları alınaraq baxış keçirilmişdir. Baxış nəticəsində seçki məntəqələrinin səsvermənin nəticələrinə dair protokollarında bu və ya digər formada seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən pozuntular müəyyən edilməmişdir.

Dairə seçki komissiyasına ünvanlanan müraciətdə iddia edilən pozuntular əsasən bir sıra seçki məntəqələri üzrə səsvermənin nəticələrini şübhə altına aldığından, nəticələri mübahisələndirilən seçki məntəqələri üzrə dairə seçki komissiyası tərəfindən araşdırılması aparılan hallara dair müxtəlif maraqları təmsil edən çoxsaylı müşahidəçilərdən, məntəqə seçki komissiyasının üzvlərindən izahatlar alınmış, digər zəruri materiallar toplanılmışdır. Toplanan dəlillərlə seçki qanunvericiliyinin tələblərinin pozulması təsdiq edilmiş, müraciətdə göstərilən pozuntular öz təsdiqini tapmadığından, əsassız olması müəyyən edildiyindən müraciətin təmin olunmaması barədə qərar çıxarılmışdır.

R.M.Məmmədov müraciətinin təmin edilməməsinə dair 105 saylı Tovuz seçki dairəsi dairə seçki komissiyasının 16 fevral 2020-ci il tarixli 20/46 saylı qərarı qiymətləndirilərkən müəyyən edildi ki, müraciətə dairə seçki komissiyası tərəfindən qanunla nəzərdə tutulan müddətdə və qaydada baxılmış, düzgün hüquqi nəticəyə gəlinmiş və müvafiq qərar ərizəçiyə vaxtında təqdim olunmuşdur.

Beləliklə, 105 saylı Tovuz seçki dairəsinin dislokasiyasında olan bir sıra seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntuları ilə bağlı iddialar öz təsdiqini tapmadığından, həmçinin səsvermənin keçirilməsi və ya səsvermənin nəticələrinin müəyyənləşdirilməsi zamanı həmin seçki dairəsi üzrə seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən qanun pozuntuları olmadığından qeydə alınmış namizəd R.M.Məmmədovun 17 fevral 2020-ci il tarixli 283 saylı müraciəti əsassız olduğundan təmin edilməməli, həmin dairə seçki komissiyasının 16 fevral 2020-ci il tarixli 20/46 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 105 saylı Tovuz seçki dairəsi üzrə qeydə alınmış namizəd Məmmədov Raul Mirsalam oğlunun 17 fevral 2020-ci il tarixli 283 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 16 fevral 2020-ci il tarixli 20/46 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılsın.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*21.02.2020-ci il*

## QƏRAR № 29/335

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 fevral 2020-ci il tarixli 308 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 44 saylı Sumqayıt - Xızı seçki dairəsi üzrə qeydə alınmış namizəd İbrahimov Əzimağa Fəxrəddin oğlu 2020-ci il fevralın 19-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək səsvermə günü adıçəkilən seçki dairəsinin bəzi seçki məntəqələrində qanun pozuntularına yol verildiyini iddia etmiş, bu pozuntuların araşdırılmasını və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, müraciətin aidiyyət qaydalarının pozulması ilə daxil olmasına dair rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməlidir, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə görə müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 4-cü hissəsinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 44 saylı Sumqayıt - Xızı seçki dairəsi üzrə qeydə alınmış namizəd İbrahimov Əzimağa Fəxrəddin oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 fevral 2020-ci il tarixli 308 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*21.02.2020-ci il*

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

## QƏRAR № 29/336

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 18 fevral 2020-ci il tarixli 281 və 282 saylı müraciətlərə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 72 saylı Yardımlı - Masallı seçki dairəsi üzrə qeydə alınmış namizədlər Qənbərov Nəsrəddin Təvəkkül oğlu və Rzayev Qubadəli Əli oğlu 2020-ci il fevralın 18-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsinin bir sıra seçki məntəqələrində seçki günündək və səsvermə günü baş vermiş qanun pozuntularının araşdırılmasına dair dairə seçki komissiyasının 15 fevral 2020-ci il tarixli 18/55, 18/56 və 18/58 saylı qərarlarını mübahisələndirmiş, müvafiq qərar qəbul edilməsi yolu ilə seçki dairəsi üzrə seçkilərin nəticələrinin ləğv edilməsini xahiş etmişdir.

Müraciətlər eyni məzmunlu olduğundan və 72 saylı Yardımlı - Masallı seçki dairəsinin eyni seçki məntəqələrini əhatə etdiyindən bir icraatda birləşdirilmişdir.

Şikayətlər Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvləri tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Namizədlər N.T.Qənbərov və Q.Ə.Rzayev müraciətlərində iddia etmişlər ki, 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə səsvermə günü 72 saylı Yardımlı - Masallı seçki dairəsinin seçki məntəqələrində müşahidəçilərə müşahidənin aparılmasına şərait yaradılmamış, səsvermədə iştirak edən seçicilərin sayının az olmasına baxmayaraq, məntəqə seçki komissiyaları tərəfindən bu say artırılmış, səsvermənin nəticələri haqqında protokol seçki məntəqəsində tərtib edilməmiş və digər qanun pozuntularına yol verilmişdir.

Eyni zamanda namizəd N.T.Qənbərov seçkilər elan edilən vaxtdan namizədliyin qeydə alınması üçün imza toplama mərhələsində, həmçinin namizədliyin qeydə alınması və seçkiqabağı təşviqat dövründə həmin seçki dairəsi üzrə pozuntulara olmasını, səsvermə günü isə seçki dairəsinin 45, 50, 33, 39, 48 və 66 saylı seçki məntəqələrində səslərin hesablanması zamanı qanun pozuntusuna yol verildiyini və səsvermənin nəticələri haqqında protokolun surətinin onun müşahidəçilərinə verilməməsini mübahisələndirmişdir.

Yuxarıda qeyd olunanlarla əlaqədar namizədlər 72 saylı Yardımlı - Masallı seçki dairəsi dairə seçki komissiyasına müraciət etmiş, komissiya tərəfindən şikayətlər araşdırılmış, həmin dairə seçki komissiyasının yuxarıda göstərilən müvafiq qərarları ilə müraciətlər əsassız hesab edilərək təmin olunmamışdır.

Araşdırma prosesində şikayətçilər ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onların Komissiyanın iclasında iştirakı təmin edilmişdir.

Namizəd N.T.Qənbərovun müraciətinin səsvermə günündək iddia edilən qanun pozuntuları hissəsi ilə bağlı qeyd edilməlidir ki, həmin pozuntular Seçki Məcəlləsi ilə müəyyən edilmiş şikayətvermə müddəti ötürülməklə mübahisələndirildiyindən onlar üzrə araşdırma aparılması istisna olunur.

Araşdırma zamanı müəyyən edilmişdir ki, səsvermə günü seçki dairəsinin mübahisələndirilən seçki məntəqələrində baş verməsi iddia edilən qanun pozuntuları təsdiqini tapmamış, seçicilər sərbəst şəkildə səs verərək öz iradələrini ifadə etmiş, məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair protokolu Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq tərtib olunmuş və bu baxımdan dairə seçki komissiyası düzgün nəticəyə gəlmişdir.

Belə ki, seçki dairəsinin bir sıra seçki məntəqələrində səsvermə günü baş verməsi iddia olunan qanun pozuntuları öz təsdiqini tapmamış və bu hal ayrı-ayrı seçki məntəqələri üzrə səslərin sayılmasının müşahidəsini həyata keçirmiş müxtəlif maraqları təmsil edən müşahidəçilərin, namizədlərin, məşvərətçi səs hüquqlu üzvlərin, məntəqə seçki komissiyalarının sədrlərinin, katiblərinin və üzvlərinin verdikləri izahatlarla, həmçinin tərtib edilmiş aktlarla təsdiq olunmuşdur.

Sosial şəbəkələrdə yayılan görüntülər nəzərdən keçirilərkən 72 saylı Yardımlı - Masallı seçki dairəsi üzrə hər hansı bir qanun pozuntusuna yol verilməsi halı müəyyən olunmamışdır.

Həmçinin, verilmiş izahatlar, aktlar və əlavə edilmiş digər sənədlərdən görünür ki, səsvermə günü bir çox seçki məntəqələrində müvafiq müşahidəçilər tərəfindən seçki qanunvericiliyinin tələblərinə əməl olunmaqla müşahidə aparılmış, Seçki Məcəlləsinin 41-ci maddəsi ilə müəyyən edilmiş müşahidənin aparılması prinsiplərinə əməl olunmuşdur.

Beləliklə, 72 saylı Yardımlı - Masallı seçki dairəsinin bir sıra seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntuları ilə bağlı iddialar öz təsdiqini tapmadığından, həmçinin səsvermənin keçirilməsi və ya nəticələrin müəyyənləşdirilməsi zamanı həmin seçki dairəsi üzrə seçicilərin iradəsini müəyyən etməyə imkan verməyən qanun pozuntuları olmadığından, qeydə alınmış namizədlər N.T.Qənbərov və Q.Ə.Rzayevin 18 fevral 2020-ci il tarixli 281 və 282 saylı müraciətləri əsassız olduğundan təmin edilməməli, həmin dairə seçki komissiyasının 15 fevral 2020-ci il tarixli 18/55, 18/56 və 18/58 saylı qərarları dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 72 saylı Yardımlı - Masallı seçki dairəsi üzrə qeydə alınmış namizədlər Qənbərov Nəsrəddin Təvəkkül oğlu və Rzayev Qubadəli Əli oğlunun 18 fevral 2020-ci il tarixli 281 və 282 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 15 fevral 2020-ci il tarixli 18/55, 18/56 və 18/58 saylı qərarları dəyişdirilmədən qüvvədə saxlanılsın.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*21.02.2020-ci il*

## QƏRAR № 29/337

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 18 fevral 2020-ci il tarixli 262 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 22 saylı Nəsimi ikinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Məmmədov Vüqar Qurban oğlu 2020-ci il fevralın 18-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının 17 fevral 2020-ci il tarixli 09/35 saylı qərarını mübahisələndirmiş, dairə seçki komissiyasının adıçəkilən qərarının ləğvini, seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab olunmasını xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

V.Q.Məmmədov müraciətində iddia etmişdir ki, dairə seçki komissiyası araşdırma apararkən onun təqdim etdiyi şikayət üzrə düzgün hüquqi nəticəyə gəlməmişdir.

Ərizəçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onun araşdırma və komissiyanın iclasında iştirakı təmin olunmuşdur.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından müvafiq sənədlər alınaraq araşdırma materiallarına əlavə edilmiş və təkrarən araşdırılmışdır.

V.Q.Məmmədovun müraciətinin araşdırılması səsvermə günü seçki dairəsinin seçki məntəqələri üzrə sosial şəbəkələrdə yerləşdirilmiş görüntüləri, məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair dairə seçki komissiyalarına təqdim etdikləri yekun protokolları və namizəd tərəfindən təqdim olunmuş digər seçki materiallarını əhatə etmişdir.

Yuxarıda qeyd olunanlarla əlaqədar namizəd V.Q.Məmmədov 22 saylı Nəsimi ikinci seçki dairəsinin dairə seçki komissiyasına müraciət etmiş, komissiya tərəfindən şikayət araşdırılmış, həmin dairə seçki komissiyasının müvafiq qərarı ilə müraciət əsassız hesab edilərək təmin olunmamışdır.

22 saylı Nəsimi ikinci seçki dairəsinin dairə seçki komissiyası qeyd edilən qərarını onunla əsaslandırmışdır ki, araşdırma nəticəsində seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntuları təsdiqini tapmadığından, səsvermənin keçirilməsi və ya nəticələrin hesablanması zamanı həmin seçki məntəqələri üzrə seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən qanun pozuntuları aşkarlanmadığından qeydə alınmış namizəd V.Q.Məmmədovun müraciəti əsassız hesab olunaraq təmin edilməmişdir.

Araşdırma zamanı müəyyən edilmişdir ki, səsvermə günü dörd seçki məntəqəsi istisna olmaqla, seçki dairəsinin mübahisələndirilən digər seçki məntəqələrində baş verməsi iddia edilən qanun pozuntuları təsdiqini tapmamış, seçicilər sərbəst şəkildə səs verərək öz iradələrini ifadə etmiş, məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair yekun protokolları Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq tərtib olunmuş və bu baxımdan dairə seçki komissiyası düzgün nəticəyə gəlmişdir.

Səsvermə günü seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntularının araşdırılması məqsədi ilə müşahidə aparmış müxtəlif seçki subyektlərindən alınmış izahatlardan müəyyən edilmişdir ki, dörd seçki məntəqəsi istisna olmaqla, həmin pozuntuları təsdiq edən hər hansı bir fakt aşkarlanmamışdır.

Sosial şəbəkələrdə paylaşılan video görüntülərin araşdırılması ilə 1, 20 və 24 saylı seçki məntəqələrində səsvermə və seçki bülletenlərinin sayılması zamanı seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən pozuntular müəyyən edilmişdir. Bu hal həmin seçki məntəqələri üzrə səsvermənin nəticəsinin etibarsız hesab edilməsi üçün hüquqi əsas yaradır.

Müvafiq məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair yekun protokolları üzrə araşdırmaya zərurət yarandığından, səsvermə günü seçki qanunvericiliyinin tələbinə uyğun olaraq məntəqə seçki komissiyaları tərəfindən tərtib edilmiş və müşahidəçilərə verilmiş 8 ədəd səsvermənin nəticəsinə dair yekun protokolların nüsxələri ilə məntəqə seçki komissiyaları tərəfindən dairə seçki komissiyasına təhvil verilmiş protokolların müqayisəli araşdırılması aparılarkən 11 saylı seçki məntəqəsinin məlumatlarında uyğunsuzluq müəyyən edilmişdir.

Qeyd olunanlara əsasən həmin seçki məntəqəsi üzrə də səsvermənin nəticələrinin etibarsız hesab edilməsi üçün hüquqi əsaslar yaranmışdır.

Göstərilənlərə əsasən müraciət qismən təmin edilməli, 1, 11, 20 və 24 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız hesab edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci, 170-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 22 saylı Nəsimi ikinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Məmmədov Vüqar Qurban oğlunun müraciəti qismən təmin olunsun, həmin seçki dairəsinin 1, 11, 20 və 24 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız hesab edilsin.
2. Dairə seçki komissiyasının 17 fevral 2020-ci il tarixli 09/35 saylı qərarı 1, 11, 20 və 24 saylı seçki məntəqələri üzrə hissədə ləğv edilsin, digər hissədə dəyişdirilmədən saxlanılsın.
3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*21.02.2020-ci il*

## QƏRAR № 29/338

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdəMərkəzi Seçki Komissiyasına daxil olmuş 18 fevral 2020-ci il tarixli 280 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 95 saylı Tərtər seçki dairəsi üzrə qeydə alınmış namizəd Əliyev Vüqar Sabir oğlu 2020-ci il fevralın 18-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının 15 fevral 2020-ci il tarixli 12/62 saylı qərarını mübahisələndirmiş, dairə seçki komissiyasının adı çəkilən qərarının ləğvini, seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab olunmasını xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

V.S.Əliyev müraciətində iddia etmişdir ki, dairə seçki komissiyası araşdırma apararkən onun təqdim etdiyi şikayət üzrə düzgün hüquqi nəticəyə gəlməmişdir.

Ərizəçi ilə əlaqə saxlanılmış, ona araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmişdir.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından müvafiq sənədlər alınaraq araşdırma materiallarına əlavə edilmiş və təkrarən araşdırılmışdır.

V.S.Əliyevin müraciətinin araşdırılması səsvermə günü seçki dairəsinin seçki məntəqələri üzrə sosial şəbəkələrdə yerləşdirilmiş görüntüləri, məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair dairə seçki komissiyalarına təqdim etdikləri yekun protokolları və namizəd tərəfindən təqdim olunmuş digər materialları əhatə etmişdir.

Yuxarıda qeyd olunanlarla əlaqədar namizəd V.S.Əliyev 95 saylı Tərtər seçki dairəsinin dairə seçki komissiyasına müraciət etmiş, komissiya tərəfindən şikayət araşdırılmış, həmin dairə seçki komissiyasının müvafiq qərarı ilə müraciət əsassız hesab edilərək təmin olunmamışdır.

95 saylı Tərtər seçki dairəsinin dairə seçki komissiyası qeyd edilən qərarını onunla əsaslandırmışdır ki, araşdırma nəticəsində seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntuları təsdiqini tapmadığından, səsvermənin keçirilməsi və ya nəticələrin hesablanması zamanı həmin seçki məntəqələri üzrə seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən qanun pozuntuları aşkarlanmadığından qeydə alınmış namizəd V.S.Əliyevin müraciəti əsassız hesab olunaraq təmin edilməmişdir.

Araşdırma zamanı müəyyən edilmişdir ki, səsvermə günü seçki dairəsinin mübahisələndirilən seçki məntəqələrində baş verməsi iddia edilən qanun pozuntuları təsdiqini tapmamış, seçicilər sərbəst şəkildə səs verərək öz iradələrini ifadə etmiş, məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair yekun protokolları Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq tərtib olunmuş və bu baxımdan dairə seçki komissiyası düzgün nəticəyə gəlmişdir.

Səsvermə günü seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntularının araşdırılması məqsədi ilə müşahidə aparmış müxtəlif seçki subyektlərindən alınmış izahatlardan müəyyən edilmişdir ki, həmin pozuntuları təsdiq edən hər hansı bir fakt aşkarlanmamışdır.

Göstərilənlərə əsasən müraciət təmin edilməməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 95 saylı Tərtər seçki dairəsi üzrə qeydə alınmış namizəd Əliyev Vüqar Sabir oğlunun müraciəti əsassız olduğundan təmin edilməsin.
2. Dairə seçki komissiyasının 15 fevral 2020-ci il tarixli 12/62 saylı qərarı dəyişdirilmədən saxlanılsın.
3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*21.02.2020-ci il*

## QƏRAR № 29/339

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 18 fevral 2020-ci il tarixli 277 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 24 saylı Nizami birinci seçki dairəsi üzrə qeydə alınmış namizədlər Yaqublu Nəsiman Qara oğlu və Mirzəliyev İlham Nurəddin oğlu 2020-ci il fevralın 18-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) adıçəkilən seçki dairəsi dairə seçki komissiyasının 13 fevral 2020-ci il tarixli 62/251 saylı qərarını mübahisələndirərək həmin qərarla razılaşmadıqlarını və faktların yenidən araşdırılmasını xahiş etmişlər.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsinin) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

N.Yaqublu və İ.Mirzəliyev müraciətdə göstərmişlər ki, 2020-ci il fevralın 9-da Milli Məclisə keçirilmiş seçkilərdə 24 saylı Nizami birinci seçki dairəsinin seçki məntəqələrindəki pozuntularla əlaqədar namizəd olaraq yazdıqları şikayəti dairə seçki komissiyasına göndərmişlər. 2020-ci il fevralın 17-də dairə seçki komissiyasının rəsmi cavabı onlara çatdırılmışdır. Həmin cavabla razılaşmadıqlarını və faktların yenidən araşdırılmasını xahiş etmişlər.

Araşdırma ilə əlaqədar müraciət etmiş namizədlərlə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onların araşdırmada və komissiyanın iclasında iştirakı təmin edilmişdir.

Dairə seçki komissiyasından mübahisələndirilən qərarın çıxarılması üçün əsas olmuş sənədlər alınaraq araşdırılmış və müəyyən edilmişdir ki, namizədlər tərəfindən 2020-ci ilin fevralın 10-u və 11-də seçki günü seçki məntəqələrində baş verməsi iddia olunan pozuntularla bağlı eyni məzmunlu ərizə ilə dairə seçki komissiyasına və Mərkəzi Seçki Komissiyasına müraciət edilmişdir. Mərkəzi Seçki Komissiyası qeyd edilən müraciəti aidiyyəti üzrə dairə seçki komissiyasına göndərmişdir. Dairə seçki komissiyası daxil olmuş müraciət üzrə hazırda mübahisələndirilən qərarı qəbul etmişdir.

Namizədlər tərəfindən seçki günü tərtib edilməsi iddia olunan, müraciətə əlavə edilmiş aktların araşdırılması ilə əlaqədar seçki dairəsinin mübahisələndirilən seçki məntəqələrində müşahidə aparmış müşahidəçilərdən, komissiya üzvlərindən və digər seçki subyektlərindən alınmış izahatlardan müəyyən edilmişdir ki, qeyd edilən pozuntu halları baş verməmişdir. Belə ki, 1 və 7 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələrinə dair protokolların surətinin müşahidəçilərə verilməməsi ilə bağlı həmin seçki məntəqələrində müşahidə aparmış Tahir Qocayevin səsvermə bülletenlərinin sayılıb qurtarmasını gözləmədən məntəqəni tərk etməsi, Səidə Mirzəlinin isə səsvermə başa çatmamış saat 18:00-da səsvermənin nəticələrinə dair protokolun surətini tələb etməsi müəyyən edilmişdir. 7 saylı seçki məntəqəsində müşahidə aparan Yasəmən Qurbanovanın yaşlı bir seçiciyə kömək etmək adı ilə səsvermə kabinəsinə daxil olması və kimə səs verəcəyini ona deməsi, həmin gün qeyd edilən seçki məntəqəsində Yasəmən Qurbanova adlı müşahidəçinin qeydə alınmaması barədə tərtib edilmiş aktla təkzib olunmuşdur. Həmin məntəqədə müşahidə aparmış Mirzəli Səidə İlham qızının digər müşahidəçi İsmayılov Xanlar İldırım oğlu barədə şikayəti Səidə Mirzəlinin ayaq üstə gəzərək müşahidə aparılmasına maneçilik törətməsi ilə bağlı olmuşdur.

Dairə seçki komissiyasının araşdırması ilə müəyyən edilmişdir ki, müşahidəçi tərəfindən seçicinin şəxsiyyət vəsiqəsinin tələb edilməsi müşahidəçilərin deyil, seçicilərin etirazına səbəb olmuşdur. Həmçinin sözügedən seçki dairəsinin hüdudları daxilində yaşamayan seçicinin həmin dairə üzrə seçki məntəqələrində səs verməsi iddiası öz təsdiqini tapmamışdır. Belə ki, toplanılmış sənədlərə əsasən səsvermədə iştirak hüququ mübahisələndirilən seçicilərin seçki məntəqəsi ərazisində yaşaması müəyyən edilmişdir.

Namizədlərin müraciətinin araşdırılması ilə əlaqədar səsvermə günü və sonrakı günlərdə sosial şəbəkələrdə seçki məntəqələrində baş verməsi iddia edilən pozuntularla bağlı yayımlanmış görüntülərə baxış keçirilmiş, 24 saylı Nizami birinci seçki dairəsinin seçki məntəqələri üzrə hər hansı bir görüntü müəyyən edilməmişdir. Eyni zamanda həmin seçki dairəsinin veb-kameralar quraşdırılmış seçki məntəqələrində də seçki pozuntusu qeydə alınmamışdır. Həmçinin seçki məntəqələri üzrə səsvermənin nəticələrinə dair protokolların araşdırılması zamanı məlumatlarda uyğunsuzluq aşkar edilməmişdir.

Araşdırmaya məcmu halda qiymət verilərək qeyd edilməlidir ki, dairə seçki komissiyası namizədlər N.Yaqublu və İ.Mirzəliyevin müraciətini obyektiv, hərtərəfli və qərəzsiz araşdıraraq təmin edilməməsi barədə düzgün nəticəyə gəlmişdir.

Beləliklə, araşdırmanın nəticəsi olaraq müraciətin təmin edilməsi üçün hüquqi əsaslar mövcud olmadığından müraciət təmin edilməməli, dairə seçki komissiyasının qərarı dəyişdirilmədən qüvvədə saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 24 saylı Nizami birinci seçki dairəsi üzrə qeydə alınmış namizədlər Yaqublu Nəsiman Qara oğlu və Mirzəliyev İlham Nurəddin oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 18 fevral 2020-ci il tarixli 277 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, həmin dairə seçki komissiyasının 13 fevral 2020-ci il tarixli 62/251 saylı qərarı dəyişdirilmədən saxlanılsın.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*21.02.2020-ci il*

## QƏRAR № 29/340

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 18 fevral 2020-ci il tarixli 276 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 25 saylı Nizami ikinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Əbilov Ramin Rəsul oğlu 2020-ci il fevralın 18-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin dairə seçki komissiyasının 16 fevral 2020-ci il tarixli 12/43 saylı qərarını mübahisələndirmiş, səsvermə günü baş vermiş qanun pozuntularının araşdırılmasını, seçki dairəsi üzrə səsvermənin nəticələrinin etibarsız sayılmasını xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Namizəd R.R.Əbilov müraciətində iddia etmişdir ki, seçkiqabağı təşviqat dövründə namizədlərə bərabər şərait yaradılmamış, səsvermə günü seçici aktivliyi aşağı olmuş, seçki prosesini müşahidə etmək üçün müşahidəçilərə yaradılan şərait qanunla nəzərdə tutulmuş tələblərə uyğun olmamış, bir çox məntəqə seçki komissiyaları saydıqları bülletenləri səsli şəkildə müşahidəçilərə elan etməmiş, dairə seçki komissiyası qanunsuz olaraq şikayətin təmin edilməməsi barədə 2020-ci il tarixli 12/43 saylı qərar qəbul etmişdir.

Araşdırma prosesində ərizəçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, komissiyanın iclasında iştirak etmək arzusunda olduğunu bildirsə də iclasa gəlməmişdir.

Dairə seçki komissiyasının mübahisələndirilən qərarı və digər sənədlər araşdırma materiallarına əlavə edilmişdir.

25 saylı Nizami ikinci seçki dairəsinin dairə seçki komissiyası mübahisələndirilən qərarını onunla əsaslandırmışdır ki, namizəd R.R.Əbilovun müraciətindəki səsvermə günü seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntuları ilə bağlı iddiaları hərtərəfli araşdırılmış, səsvermənin keçirilməsi və ya nəticələrinin rəsmiləşdirilməsi zamanı seçki məntəqələri üzrə seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən qanun pozuntuları aşkarlanmadığından müraciət əsassız hesab olunaraq təmin edilməməlidir.

Araşdırma ilə əlaqədar sosial şəbəkələrdə yayılan görüntülər nəzərdən keçirilərkən səsvermə prosesində, səslərin hesablanmasında və səsvermənin nəticələrinə dair protokolların tərtib edilməsində bu və ya digər şəkildə seçkilərin nəticəsinə təsir edə biləcək hallar yalnız 26 saylı seçki mənqəsində müşahidə edilmişdir ki, bu da seçicilərin iradəsini müəyyən etməyə imkan verməyən pozuntu kimi qiymətləndirilməli və həmin seçki məntəqəsi üzrə səsvermənin nəticələri etibarsız hesab edilməlidir.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından mübahisələndirilən məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair protokolları alınaraq onlara baxış keçirilmişdir. Baxış nəticəsində həmin seçki məntəqələrinin səsvermənin nəticələrinə dair protokollarındakı məlumatlarda uyğunsuzluqlar aşkarlanmamışdır. Araşdırma zamanı bu və ya digər formada seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən pozuntular aşkar edilməmişdir.

Göstərilənlərə əsasən müraciətin qismən təmin edilməsi, seçki dairəsinin 26 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələrinin etibarsız hesab olunması və dairə seçki komissiyasının 16 fevral 2020-ci il tarixli 12/43 saylı qərarının həmin seçki məntəqəsinə aid hissədə ləğv edilməsi üçün hüquqi əsaslar yaranmışdır.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 25 saylı Nizami ikinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Əbilov Ramin Rəsul oğlunun müraciəti qismən təmin edilsin, 26 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələri etibarsız hesab edilsin.
2. Dairə seçki komissiyasının 16 fevral 2020-ci il tarixli 12/43 saylı qərarı 26 saylı seçki məntəqəsi üzrə hissədə ləğv edilsin, digər hissədə dəyişdirilmədən saxlanılsın.
3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*21.02.2020-ci il*

# İŞİMİZ, GÜZƏRANIMIZ




## SOCAR və Sumqayıt Texnologiyalar Parkının birgə müəssisəsi yaradılmışdır

SOCAR və Sumqayıt Texnologiyalar Parkı (STP) arasında birgə müəssisənin yaradılmasına dair müqavilə imzalanmışdır. "SOCAR-STP" adlanan yeni birgə müəssisə MDB regionunun ən böyük mexaniki avadanlıq emalatxanası və ağır kranlar zavodunu əhatə edən istehsalatı idarə edəcək.

SOCAR-ın prezidenti Rövnəq Abdullayevin iştirakı ilə keçirilmiş mərasimdə müqaviləni STP-nin baş direktoru Emin Məmmədov və SOCAR-ın yataqların işlənməsi üzrə vitse-prezidenti Yaşar Lətifov imzalamışlar.

Birgə müssisənin yaradılması Azərbaycanın qlobal brendi olan SOCAR və ölkənin ən iri sənaye komplekslərindən STP arasında neft-qaz hasilatı sektorunda maddi-texniki bazanın daha da təkmilləşdirilməsi, mütərəqqi texnologiyaların tətbiqi, texniki xidmət və mütəxəssis mübadiləsinin təminatı üzrə əməkdaşlıq imkanlarının inkişaf etdirilməsi məqsədini daşıyır. Birgə müəssisə beynəlxalq standartlara cavab verən yerli istehsal gücünü artırmağı, MDB miqyasında və hətta daha geniş miqyasda neft-qaz-mədən avadanlıqları və texnologiyalara dair xidmətlər təklif edən aparıcı və rəqabətədavamlı şirkətə çevrilməyi hədəfləyir.

Yeni birgə müəssisənin əsas gücü hazırkı bazar tələblərinə uyğun olan peşəkar və təcrübəli texniki heyətin, sənaye səriştəliklərinin və müasir avadanlığın bir yerdə cəmləşdirilməsidir.

"SOCAR-STP"nin əsas fəaliyyəti qazma ləvazimatları, quyu tamamlanması, quyuiçi əməliyyatlar, fırlanan və təzyiq altında olan avadanlıq, fontan armaturu, APS (Advanced Parts Solution), ağır kranlar üçün texniki xidmət və təmir işlərini həyata keçirməkdən ibarət olacaqdır.

SOCAR-ın prezidenti Rövnəq Abdullayev imzalanma mərasimində bildirmişdir ki, yeni müəssisə mühəndislik və maşınqayırma sahələrinin simbiozu üçün şərait yaradır. Yeni müəssisədən əsas gözlənti yüksək keyfiyyətlə və rəqabətli şəkildə fəaliyyət göstərməklə açıq tenderlərdə uğur qazanılması, həm Azərbaycan, həm də digər bazarlarda rəqabətli şirkətə çevrilməkdir. Sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühitin mühafizəsi yeni yaradılan şirkətin əsas prioriteti olacaqdır.

Xatırladaq ki, ötən il dekabrın 10-da "Energy Forward" tədbiri zamanı SOCAR ilə STP arasında əməkdaşlığa dair ilkin anlaşma memorandumu imzalanmışdır və onun davamı olaraq bu gün birgə müəssisə yaradılmışdır.

## Valyuta rejimi liberallaşdırılır



AR Mərkəzi Bankı (AMB) İdarə Heyətinin 20 fevral 2020-ci il tarixli qərarı ilə "Azərbaycan Respublikası rezidentlərinin xarici valyutada, habelə qeyri-rezidentlərin milli və xarici valyutada əməliyyatlarının aparılması Qaydaları"na dəyişikliklər təsdiq olunmuşdur.

AMB-nin məlumatında bildirilir ki, dəyişikliklərə əsasən, qabaqcadan malların idxalı ilə əlaqədar ödəniş aparıldıqda malların ölkəyə idxalını təsdiq edən gömrük bəyannaməsi və ya idxal olunan xidmətlərin göstərilməsini təsdiq edən sənədlərin müvəkkil banka təqdim olunması müddəti mövcud 270 gündən ən geci 2 il müddətinə qədər uzadılmış, eyni zamanda idxal olunmayan mal və xidmətlərin dəyəri 10 min ABŞ dolları ekvivalenti məbləğini aşmadığı halda valyuta nəzarəti orqanına bu barədə məlumat verilməsi tələbi aradan qaldırılmışdır.

Məlumatda daha sonra bildirilir ki, qərar son illər ölkənin tədiyə balansı göstəricilərində müşahidə edilən yaxşılaşma prosesləri, gömrük nəzarətinin, bütövlükdə valyuta nəzarətinin gücləndirilməsi istiqamətində aparılan islahatların müsbət nəticələri nəzərə alınmaqla qəbul olunmuşdur. Belə ki, hazırda tədiyə balansının cari əməliyyatlar hesabının profisitinin ümumi daxili məhsula nisbəti ikirəqəmli ədədlərlə ölçülür. İqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft ixracının təşviqi istiqamətində görülmüş işlər profisitli tədiyə balansının formalaşmasında həlledici rol oynamışdır. Cari əməliyyatlar hesabı ilə yanaşı, son illər kapitalın və maliyyənin hərəkəti hesabında da əhəmiyyətli yaxşılaşma qeydə alınmışdır.

Valyuta rejiminin liberallaşdırılması həm də ölkədə sahibkarlıq üçün fəaliyyət mühitinin daha da yaxşılaşdırılmasına dəstək olacaqdır. Məlum olduğu kimi, cari ilin əvvəlində Mərkəzi Bankın İdarə Heyətinin yanında Sahibkarlarla Əməkdaşlıq Şurası təsis edilmişdir. Bu şurada qaldırılan prioritet məsələlərdən biri də ölkədə mövcud valyuta rejimi çərçivəsində idxal əməliyyatlarının tənzimlənməsinin liberallaşdırılması ilə bağlı olmuşdur.

Sözügedən qaydalara dəyişikliklər Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildikdən sonra qüvvəyə minəcəkdir.

## Azərbaycan şirkətləri beynəlxalq sərgidə mükafata layiq görülüblər

Xəbər verildiyi kimi, İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AzPROMO) təşkilatçılığı ilə Azərbaycan məhsulları Moskvada keçirilən "Prodexpo 2020" beynəlxalq ərzaq sərgisində nümayiş olunmuşdur.

Nazirliyin bu barədə yaydığı məlumatda bildirilir ki, sərgi çərçivəsində azərbaycanlı sahibkarlar xarici həmkarları ilə görüşlər keçirmiş, ixraca dair razılıqlar əldə etmiş, müqavilələr bağlamışlar. Belə ki, "Balxurma" şirkəti qurudulmuş xurma məhsullarının Taylanda ixracına dair müqavilə imzalamışdır. Bundan başqa, Göygöl Şərab Zavodu şərab və brendinin Litvaya, "Tac-Gülüstan" şirkəti mineral su və limonad məhsullarının Yaponiyaya ixracına, "Az-Granata" şirkəti Rusiyada spirtli içkilərin idxalı ilə məşğul olan şirkət ilə distribüterluq müqaviləsinin bağlanmasına dair razılıq əldə etmişlər.

Sərgidə məhsulları xarici şirkətlərin və sərgi ziyarətçilərinin böyük marağına səbəb olan Azərbaycan şirkətləri - "Karaca" və "Azərstar" "Ən yaxşı müəssisə" mükafatına, "Caspian coast" şirkəti isə gümüş və bürünc medala layiq görülmüşdür.

## Yanvarda 55,9 milyon manatlıq toxuculuq məhsulları, geyim və ayaqqabı istehsal edilib



Bu ilin yanvarında toxuculuq sənayesi, geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı sahələrində 55,9 milyon manat dəyərində məhsul istehsal olunub.

Dövlət Statistika Komitəsindən bildirilib ki, əvvəlki ilin eyni ayı ilə müqayisədə geyim istehsalında 70,1 faiz artım, toxuculuq sənayesində 1,4 faiz, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalında isə 59,7 faiz azalma müşahidə edilib.

## DOST beynəlxalq müsabiqədə birinci olub

Rusiyanın "Şimal-Cənub" Politologiya Mərkəzinin təşkilatçılığı ilə Bakıda "Xəzər Könüllülük Məktəbi"nin birinci iclası və "Xoşməramlı meridianlar" müsabiqəsinin final mərhələsi keçirilib.

Final mərhələsində könüllülük fəaliyyəti üzrə Xəzəryanı dövlətlərin ən yaxşı təcrübələrindən ibarət 25 layihə beynəlxalq münsiflər heyəti tərəfindən qiymətləndirilib. Azərbaycanı təmsil edən DOST Agentliyinin "DOST-TALKS" layihəsi "İlin layihəsi" seçilərək 1-ci yerə layiq görülüb və müsabiqənin qalibi olub. Qazaxıstanı təmsil edən "Sputnik" layihəsi 2-ci, Rusiyanı təmsil edən "Tom Soyer Fest" layihəsi isə 3-cü yeri tutublar.

DOST Agentliyinin bu növbəti uğuru "Könüllü DOST" proqramının könüllülük hərəkatında fəal iştirakına əsaslanır. Qeyd edək ki, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2020-ci ilin Azərbaycanda "Könüllülər ili" elan edilməsi ölkəmizdə könüllülük hərəkatının daha geniş miqyas almasına şərait yaradıb. DOST Agentliyi də bu sahədə mühüm rolu ilə seçilir.

"Könüllü DOST" proqramına 9600-dən çox müraciət olunub və ötən dövrdə bu proqram üzrə 300 könüllü DOST mərkəzlərinə cəlb edilib. Onlar bu mərkəzlərdə dövlət sosial xidmətlərinin "bir pəncərə"dən vətəndaş məmnunluğu prinsipi ilə təqdim edilməsi işlərinə öz töhfələrini verirlər. "Gənc DOST" proqramı üzrə çalışan gənc könüllülərlə, o cümlədən sağlamlıq imkanları məhdud gənclərlə bərabər, 60-75 yaşlarında bir qrup pensiyaçı da "Gümüşü DOST" proqramı əsasında könüllülər komandasına qoşulub.

DOST könüllülərindən bir qismi artıq DOST mərkəzlərinin əməkdaşları kimi fəaliyyət göstərirlər.

## "Aqrar İnkişaf Könüllüləri"nin "Laza qış düşərgəsi"

"Aqrar İnkişaf Könüllüləri" Təşkilatı tərəfindən Qusar rayonunun Laza kəndində "Laza qış düşərgəsi" təşkil olunub. Layihənin əsas məqsədi gənclərin asudə vaxtının səmərəli təşkili, onların kənd həyatı və kənd turizminə diqqətini cəlb etməkdir.



Layihə üzrə elan edilmiş müsabiqədə iştirak üçün 900-dən çox gəncdən müraciət daxil olmuşdur. Müraciət edən gənclər arasında müxtəlif meyarlar əsasında seçim aparılmış və 25 gəncin layihədə iştirakı təmin edilmişdir. Gənclər layihə çərçivəsində təşkil olunan təlim, seminar və yürüşdə iştirak etmişlər.

Təlim və seminarlarda gənclərə komanda quruculuğu və onun idarə olunması, çevik qərar qəbuletmə, düzgün ünsiyyət bacarıqları, ekstremal idman növü, dağ zirvəsinə yürüş üçün fiziki hazırlıq qaydaları barədə layihə iştirakçılarına məlumat verilmişdir. Gənclərə həmçinin sağlamlıq və təhlükəsizliyin təmin edilməsi ilə bağlı təlimatlar verilmiş, ilkin tibbi yardım qaydaları izah edilmişdir.

Təlim və seminarlardan sonra layihə iştirakçıları dağa yürüş etmiş, Laza kəndinin əsrarəngiz təbiəti ilə əyani şəkildə tanış olmuşlar.



## Maliyyə-bank sektorunda inkişaf potensiallı sistem formalaşır

Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan iqtisadi siyasət çərçivəsində son üç ildə aparılan institusional islahatlar, toksik aktivlərin sağlamlaşdırılması, problemli kreditlərin həlli, əmanətlərin tam sığortalanması, nağdsız dövriyyənin və rəqəmsallaşmanın dəstəklənməsi, bütövlükdə makroiqtisadi sabitliyin təmin edilməsi ilə maliyyə-bank sektoruna yeni nəfəs verilib.

Nəticədə ötən il bank sektorunun kredit portfeli genişlənmiş, mənfəəti, aktiv və əmanətləri, balans kapitalı artmış, xarici borcu azalmışdır. Bank sektorunun xalis mənfəəti də son bir ildə daha iki dəfə artmış, dollarlaşma kreditlərdə 38 faizdən 35, fiziki şəxslərin əmanətlərində isə 63 faizdən 54 faizə enmişdir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlının sözlərinə görə, ötən il manatın dövriyyə sürəti 6 faiz azalmışdır: "Əgər pul kütləsi artırsa, pulun dövriyyə sürəti də azalmalıdır ki, tarazlığı təmin olunsun. Samuelson və Fridman belə bir mülahizə irəli sürmüşlər ki, uzunmüddətli dönəmdə pulun dövriyyə sürəti real gəlirin artımı həddində aşağı düşməklə tənzimləyici təsir göstərir.

Azərbaycanda pul tədavülü qanununun bu tələbi qorunmuşdur. Əks halda ÜDM-in artımı şəraitində inflyasiya sürətlənə bilərdi".

Ötən il real sektora yönəldilən kreditlərin sahələr üzrə xüsusi çəkisində ev təsərrüfatları, ticarət və ictimai iaşənin önə çıxdığını deyən icraçı direktor bu iki sahəyə ayrılan kreditin həcminin ümumi kredit portfelinin 60 faizini təşkil etdiyini nəzərə çatdırır: "Xüsusən ev təsərrüfatlarına ayrılan kreditlər ilk dəfə olaraq portfelin yarısına yaxınlaşır. Nəzərə alanda ki, 2019-cu ildə əhalinin nominal gəlirləri də 7,4 faiz artıb, onda tələbin sürətlə artmasının şahidi olarıq. Tələbin sürətlə artması fonunda qeyri-neft iqtisadiyyatı da uyğun artım tempi göstərməlidir ki, idxal sürətlənməsin".

Kredit portfelinin miqyası və strukturunun səmərəliliyindən danışan V.Qasımlı deyir: "Əgər Azərbaycanda kredit qoyuluşu ÜDM-in cəmi 20 faizini təşkil edirsə, dünya üzrə bu göstərici 130, o cümlədən Avropa və Mərkəzi Asiya üzrə 91 və Azərbaycanın da daxil olduğu yuxarı orta gəlirli ölkələrdə 123 faizdir. Amma unutmayaq ki, xaricdə kredit qoyuluşlarından əlavə, həm də qiymətli kağızlar bazarından sərmayə cəlb olunur. Deməli, Prezidentin vurğuladığı kimi, Azərbaycanda kredit portfelinin böyüməsi və maliyyə dərinliyinin artması üçün geniş imkanlar var".

Məlumdur ki, Azərbaycanda kredit faizlərinin aşağı salınması və daha sağlam kredit ekosisteminin qurulması üçün qabaqcıl beynəlxalq təcrübədə tətbiq edilən üç vacib mexanizmdən istifadə olunmuşdur. Onlardan biri daşınan əmlakın yüklülüyünün dövlət reyestrinin yaradılmasıdır ki, bu da daşınmaz əmlakı olmayan sahibkarların da dövriyyə vəsaitlərini girov qismində təqdim edərək kredit almalarına imkan yaradır. İkincisi, dünyada uğurla sınaqdan çıxmış kredit zəmanəti mexanizminin yaradılmasıdır. Üçüncü mexanizm isə kredit bürolarının yaradılmasıdır ki, bu da ümumilikdə ölkədə kredit məlumatlarının mübadiləsi sisteminin inkişafına, şəffaf hesabatlılıq sisteminin qurulmasına və banklarda elektron xidmətlərin tətbiqinə imkan verir. V.Qasımlı qeyd edir ki, bu üç mexanizmin funksionallığının daha da artırılması zəruridir.

Müəllif həmçinin vurğulayır ki, Azərbaycanda bankların depozit bazasından asılılığı yüksək səviyyədədir: "Bu asılılığın azaldılması və diversifikasiya kanallarının genişləndirilməsi istiqamətində tədbirlərin görülməsi vacibdir. Ötən il bankların cəlb etdikləri hər 100 manatın 70 manatdan çoxu depozitlərin payına düşmüşdür. Halbuki 2016-cı ildə həmin göstərici 57 manat civarında olmuşdur. Göründüyü kimi, son 3 il ərzində depozitlərin bank resurslarında xüsusi çəkisi artmışdır. Bu vəziyyət bankların bir mənbədən - depozitlərdən yüksək asılılığını göstərir. Üstəlik ümumilikdə 25 milyard manatlıq depozitlərin 55 faizi tələb olunanadəkdir. Halbuki bankların manatla verdiyi kreditlərin 83, xarici valyuta ilə verdiyi kreditlərin 76 faizi uzunmüddətlidir. Buna görə də bankların alternativ mənbələrdən, o cümlədən xarici bazarlardan və Mərkəzi Bankın yenidən maliyyələşmə resurslarından istifadəsinin genişlənməsi lazımdır".

Məlum olduğu kimi, kreditin "maya dəyəri"nə oturan digər maddə əməliyyat xərcləridir. Bu sıraya işçilərin və filialların saxlanılması, kredit qərarının verilməsi ilə bağlı və s. xərclər daxildir. V.Qasımlı bildirir ki, banklarda maliyyə texnologiyaları və institutsional islahatlar tətbiq edilməklə əməliyyat xərcləri azaldıla, həmçinin ölkənin informasiya təhlükəsizliyi maraqları nəzərə alınmaqla beynəlxalq miqyasda tanınmış kredit bürolarının imkanlarından istifadə nəzərdən keçirilə bilər: "Bir sözlə, bu gün bank sektorunda likvidlik izafi də olsa, qeyri-bərabər paylanıb və bahalıdır. Odur ki, bank tənzimlənməsi daha çox bazar mexanizmini, rəqabət mühitini və beynəlxalq maliyyə bazarları ilə daha dərindən inteqrasiyasını əsas götürərək həyata keçirilməlidir".

Azərbaycanda qiymətli kağızlar bazarının inkişafından danışan V.Qasımlı deyir ki, keçən il Bakı Fond Birjasının illik ticarət dövriyyəsi üzrə ümumi əqdlərin dəyəri 14 milyard manat və ya ÜDM-in 17 faizi həcmində olub: "Azərbaycanda Bafet indikatorunun (qiymətli kağızlar bazarının həcminin ÜDM-ə nisbətini bəzən məşhur milyarder Uorren Bafetin şərəfinə Bafet indikatoru da adlandırırlar) 50 faizdən az olması onu göstərir ki, bizim qiymətli kağızlar bazarını inkişaf etdirmək üçün geniş imkanlarımız var. Hərçənd Azərbaycanın maliyyə bazarında, Avropada olduğu kimi, aparıcı institutlar banklardır. Hazırda bizim qiymətli kağızlar bazarının 80 faizdən çoxu dövlətin qiymətli kağızlarıdır. Bundan əlavə, Azərbaycanda indi yığım səviyyəsi çox yüksəkdir. Dünya Bankının hesablamalarına görə, 2018-ci ildə Azərbaycanda yığımın ÜDM-ə nisbəti 33 faiz olmaqla dünyanın orta göstəricisini (25 faiz), habelə Avropa və Mərkəzi Asiya ölkələrini (24 faiz) və bütün postsovet dövlətlərini geridə qoymuşdur. Göründüyü kimi, yığımın qiymətli kağızlar bazarı üzərindən iqtisadiyyatın real sektoruna cəlb edilməsi imkanlarımız böyükdür. Amma bunun üçün Azərbaycanda investisiya şirkətləri, investisiya fondları, əsas fəaliyyətini qiymətli kağızlara investisiyalar təşkil edən şəxslər, kredit təşkilatları, sığortaçılar, pensiya fondları, dilerlər və beynəlxalq maliyyə təşkilatlarının qiymətli kağızlar bazarında aktivliyi artmalıdır".

Kiçik və orta biznesin (KOB) maliyyələşməsinin əhəmiyyətindən söhbət açan V.Qasımlı deyir ki, hazırda dünyada biznesin 90 faizini və iş yerlərinin 50 faizini KOB-lar təmin edir. İnkişaf edən ölkələrin iqtisadiyyatının isə 40 faizi KOB-lara aiddir. Dünyada 2030-cu ilə qədər yaranacaq 600 milyon iş yeri ehtiyacının əsasən KOB-lar tərəfindən ödəniləcəyi gözlənilir. Prezident İlham Əliyev dünyadakı bu trendə uyğun olaraq, Azərbaycanda KOB-ların inkişafını prioritet kimi elan etmişdir. Dünya Bankının hesablamalarına görə, bütün dünyada KOB-ların əsas çətinliyi maliyyəyə çıxışdır. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin də dəstək verdiyi və OECD-nin hazırladığı "Azərbaycanda sahibkarlığın gücləndirilməsi yolu ilə diversifikasiyanın sürətləndirilməsi" tədqiqatını 2018-ci ildə Parisdə müzakirə etmişdir. Bu tədqiqatda Azərbaycanda KOB-un maliyyələşdirilməsi sahəsində maraqlı nəticələr və tövsiyələr əldə olunmuşdur.

"Xarici maliyyələşdirmə KOB-lar üçün əməliyyatlarını genişləndirməyə, avadanlıqlarını modernləşdirməyə və yeni bazarlara çıxışlarına imkan verən vacib resursdur. Lakin yüksək riskli profillər və məhdud kredit tarixçələrinin olması səbəbindən KOB-lar tez-tez ciddi girov tələbləri və yüksək faiz dərəcələri ilə üzləşirlər ki, bu da onlar üzərində kredit məhdudiyyətinin qoyulmasına səbəb olur", - deyən icraçı direktorun sözlərinə görə, bank kreditləri KOB-lar üçün ən geniş yayılmış xarici maliyyələşmə üsulu olsa da, bir sıra alternativ maliyyələşdirmə alətləri (aktivlərə əsaslanan maliyyələşdirmə, səhmdar kapitalının maliyyələşdirilməsi, alternativ borc alətləri və s.) də mövcuddur.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) yeni yaranmasına baxmayaraq, KOB-un inkişafı istiqamətində çox işlər görür. Bu baxımdan Azərbaycanda kiçik və orta biznesin inkişafı fondlarının fəaliyyəti xüsusi qeyd edilməlidir. Həmin fondların məqsədi KOB-ların inkişafı və onların maliyyə dəstəyi ilə təmin edilməsi, bu sahəyə yerli və xarici investisiyaların cəlb olunmasıdır. Sahibkarlığın İnkişafı Fondu, Aqrar Kredit və İnkişaf Agentliyi, İnnovasiyalar Agentliyi və EnterpriseAzerbaijan.com da KOB-ların maliyyə mənbələrinə çıxışına dəstək verirlər.

Bütün bunlara diqqət çəkən V.Qasımlı vurğulayır ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkənin maliyyə-bank sektorunda daxili və xarici şoklara qarşı dayanıqlı, risk idarəetməsi proseslərinə dərindən fokuslanmış, effektiv tənzimləmə və güclü infrastruktur elementləri ilə əhatə olunmuş, inkişaf potensiallı sistem formalaşır.

***Raqif MƏMMƏDLİ,***
***"Azərbaycan"***

# “Azercell” 2019-cu ilin nəticələrini açıqlayıb






2019-cu il Azərbaycanı yeni bağlantı erasına hazırlamağı vəd edən “Azercell Telekom” 2019-cu ildə ən son texnoloji yenilikləri ölkəyə gətirməklə yanaşı, 4.5 milyon nəfərdən çox abunəçinin seçimi və 49 faiz bazar payının sahibi kimi mobil kommunikasiya bazarında birinciliyini qorumuş olub.







Artıq uzun illərdir ki, ölkəmizdə qeyri-neft sektorunun ən iri vergi ödəyicisi olan “Azercell” 2019-cu ildə dövlət büdcəsinə 112 milyon manat, 23 il ərzində isə 1 milyard 845 milyon manat vergilər də daxil olmaqla, dövlət büdcəsinə ödənişlər edib. Şirkət tərəfindən Azərbaycanda telekommunikasiyanın inkişafına ötən il 94 milyon yarım ABŞ dollarından çox, ümumilikdə isə 1 milyard 621 milyon ABŞ dollarından artıq sərmayə yatırılıb. 2019-cu ildə sosial layihələrə ümumilikdə 253 min ABŞ dollarından artıq vəsait sərf edilib ki, bu göstərici 23 il ərzində 19 milyon dolları keçib. Bu fikirlər dünən “Azercell Telekom”un keçirdiyi 2019-cu ilin hesabat konfransında səslənib.

Tədbirdə çıxışçılar qeyd edib ki, ötən il iyunun 21-də Heydər Əliyev Mərkəzində dövlət və biznes strukturları, ictimai xadimlər və media nümayəndələrinin iştirakı ilə keçirilən möhtəşəm tədbirdə ilk dəfə olaraq 360 dərəcəlik 3D proyeksiyası nümayiş etdirildi. 300-ə yaxın dron səmada Azərbaycan bayrağı və xəritəsinin, “Azercell”in əvvəlki və yeni loqolarının təsvirini yaradaraq izləyicilərə möhtəşəm şou sərgiləyib.

Yeni texnoloji imkanları və rəqamsal xidmətləri vətəndaşlara daha yaxşı tanıtmaq üçün “Azercell Telekom” “Rəqəmsal Dünya Bölgələrdə” layihəsilə ölkənin 26 müxtəlif şəhər və bölgəsinə səfər edərək əhali üçün maarifləndirici və əyləncəli rəqamsal proqramlar təşkil edib.

Cəmiyyətin rəqəmsallaşmasına doğru ən əhəmiyyətli addımlarından biri kimi bir neçə ay öncə “Azercell”in ölkədə və Cənubi Qafqazda ilk 5G pilot şəbəkəsini istifadəyə verməsi olub.

Müştərilərin rahat şəkildə yaxınları ilə ünsiyyət saxlamaları üçün “Azercell” Aylıq İnternet Paketlərində Whatsapp əlavəsində pulsuz yazışma imkanı yaratdı. 2019-cu ildə təqdim olunmuş müxtəlif həcmli yeni Sərbəst tarifi isə özündə həm danışıq, həm internet paketi, həm də limitsiz yazışma imkanlarını birləşdirərək abunəçilər arasında böyük populyarlıq qazandı.

“Azercell” şirkəti abunəçilərinin istifadəsinə daha müasir dizayna malik olan “Kabinetim” şəxsi kabinet xidmətini təqdim etdi. Bundan əlavə, nömrələrin sadə fiziki sim-paketlərə bağlılığı da tamamilə aradan qaldırıldı və nömrələrin satışı mərkəzləşdirilmiş www.azercellim.com onlayn bazasının köməyilə həyata keçirildi.

Smartfonlar vasitəsilə rəqəmsal xidmətlərə doğan tələbatdan irəli gələrək “Azercell” ötən ildə əyləncə və səmərəli istifadə üçün “ivi”, “Zvuk”, “Azercell Kids” və “Bookmate” mobil tətbiqlərini “Azercell+” xidmətləri çətirinin altında birləşdirdi.

Eyni zamanda, korporativ abunəçilərin istifadəsinə daimi ünsiyyət üçün olduqca rahat “Biznesim Sosial Şəbəkələr” internet paketlərini verməklə “Azercell” ölkəmizdə iri/orta və kiçik sahibkarlığın inkişafına öz töhfəsini vermiş olub. “Azercell”in təqdim etdiyi müxtəlif yeniliklər və sərfəli tariflər nəticəsində hazırda “Azercell” abunəçilərinin 58.6 faizi smartfon istifadəçiləridir.

Rəqəmsallığı, eyni zamanda, Korporativ Sosial Məsuliyyət strategiyasında əks etdirən şirkət təhsilin inkişafı, gənclərin inkişafı, uşaq hüquqlarının qorunması, sağlamlığın müdafiəsi, rəqəmsal savadlılığın artırılması, mədəni irsin qorunmasına töhfə verən təşəbbüslərini davam etdirib. Yay aylarını əhatə edən “Rəqəmsal dünya bölgələrdə” layihəsi çərçivəsində şirkət nümayəndələri düşmənlə təmas xəttində yerləşən Cocuq Mərcanlı qəsəbəsi də daxil olmaqla, həmçinin uşaq evləri, internat məktəbləri, məcburi köçkün düşərgələrinin sakinləri və aztəminatlı ailələrə hədiyyələr payladılar, onlar üçün “Azercell” Mobil Diş və Mobil Göz klinikalarında pulsuz müayinələr təşkil etdilər.

“Azercell” Azərbaycanda ilk dəfə olaraq Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin təşkil etdiyi “Kibertəhlükəsizlik həftəsi” çərçivəsində kibertəhlükəsizlik sahəsində maarifləndirmə və informasiya təhlükəsizliyi mədəniyyətinin formalaşdırılması, informasiya proseslərinin mühafizəsi, internetdən təhlükəsiz istifadə mövzuları ətrafında təşkil olunan layihələrdə fəal iştirak edib. 2019-cu il ərzində 588 şagird, 76 valideyn, 78 müəllim kibertəhlükəsizlik təlimlərindən yararlanmışdır. Layihə başlandığı zamandan indiyə qədər isə ümumilikdə 1250 şagird, 219 valideyn, 178 müəllim təlimlərdə iştirak edib.

“Azercell”in “Bookmate” proqramına 650 illiyi qeyd olunan şair-mütəfəkkir İmadəddin Nəsiminin qəzəllərinin 3 dildə yerləşdirilməsi isə şirkətin Azərbaycan mədəniyyətinin təbliği və “2019 Nəsimi ili”nə böyük töhfəsi olub.

Ölkədə informasiya texnologiyalarına olan marağı yüksəltmək məqsədilə 2019-cu ildə Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Azərbaycan Respublikası Təhsil Nazirliyinin həyata keçirdiyi 31-ci Beynəlxalq İnformatika Olimpiadasında “Azercell” İstedadların Rəqəmsal Sponsoru qismində çıxış edib.

Güclü və işinə həvəsli İnsan Kapitalına xüsusi önəm verən “Azercell” Telekom 2019-cu il ərzində əməkdaşlarının inkişafına 973 min ABŞ dollarından artıq vəsait xərcləmişdir. Bundan əlavə, 2019-cu ildə ölkənin müxtəlif ali təhsil müəssisələrində oxuyan 67 gənc şirkətin Tələbə proqramlarından yararlanmış, “Azercell” Akademiyası tərəfindən şirkətdaxili və müxtəlif təşkilat və qurumlara 161 tədris sessiyaları keçirilmişdir.

Təbii haldır ki, şirkətin fərqli istiqamətlərdə innovativ fəaliyyəti həm yerli, həm də beynəlxalq qurumların diqqətinə səbəb olaraq 2019-cu ildə də “Azercell”ə nüfuzlu mükafatlar qazandırıb. ABŞ-ın prestijli biznes mükafatı olan “Stevie” mobil operatoru “İlin Telekommunikasiya şirkəti” adına layiq görülüb.

“Azercell”in yeni brend kimliyinin təqdim edilməsi isə ilin İnnovasiya tədbiri seçildi və “Azercell” Azərbaycan İnnovasiya mükafatına layiq görüldü.

***H.KƏRİMOV, “Azərbaycan”***

# DTX Neftçala rayonunda vəzifəli şəxslərlə bağlı keçirilən əməliyyat barədə məlumat yayıb

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti (DTX) Neftçala rayonunda vəzifəli şəxslərlə bağlı keçirilən əməliyyat barədə yeni məlumat yayıb.

DTX-nin İctimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının yerli icra hakimiyyəti orqanlarının vəzifəli şəxsləri tərəfindən vətəndaşların hüquqlarına, dövlətin qanunla qorunan mənafelərinə zərər vuran, dövlət orqanlarının fəaliyyətinə kölgə salan qanunsuz əməllərə yol verilməsinə dair məlumatlar əsasında kompleks araşdırma tədbirləri həyata keçirilməkdədir.

Bu tədbirlərin davamı kimi Neftçala Rayon İcra Hakimiyyətinin vəzifəli şəxslərinin səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə edib vətəndaşların hüquqlarına, cəmiyyətin və dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vuran çoxsaylı cinayət əməllərinə yol verməladmalarına dair məlumatlar əsasında kompleks araşdırma tədbirləri başlanılıb.

Toplanılmış materiallarla rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyevin mütəmadi olaraq vəzifə səlahiyyətlərindən sui-istifadə edib təhsil, səhiyyə və digər yerli dövlət təsisatları rəhbərlərindən müxtəlif adlar altında şəxsən pul vəsaitləri tələb edərək almasına əsaslı şübhələr müəyyən olunub. Həmçinin İsmayıl Vəliyevin şəxsən, habelə icra hakimiyyəti başçısının birinci müavini Vurğun Əkbərov, Memarlıq və tikinti şöbəsinin müdiri Vüqar Nağıyev, tabeçiliyində olan digər vəzifəli şəxslər vasitəsilə rayon ərazisində fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərdən müxtəlif adlar altında pul vəsaitləri tələb edərək almasına əsaslı şübhələr müəyyən edilib.

İsmayıl Vəliyevin, Vurğun Əkbərovun, icra başçısının müavini Gültəkin Sadıqovanın, Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Anar Cəfərovun xidməti otaqlarına məhkəmənin qərarı əsasında keçirilən baxış zamanı müxtəlif yerli icra hakimiyyəti və digər yerli dövlət orqanlarının vəzifəli şəxslərindən, sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərdən alınmış vəsaitlərin öz əlyazmaları ilə tərtib olunmuş siyahıları, külli miqdarda pul vəsaitləri, sənədlər və iş üzrə əhəmiyyət kəsb edən digər dəlillər aşkar edilərək götürülüb.

Aparılan araşdırmalarla İsmayıl Vəliyev tərəfindən təmir-tikinti, abadlıq işlərinə ayrılan dövlət vəsaitlərinin müəyyən hissəsinin nağdlaşdırılaraq mənimsənildiyi, vəzifə səlahiyyətlərindən sui-istifadə edilməklə rayon ərazisində torpaq sahələrinin özbaşına tutulduğu, qanunsuz olaraq şəxsi məqsədlər üçün istifadə edildiyinə, həmin ərazilərdə qanunsuz tikinti işləri aparıldığına əsaslı şübhələr müəyyənləşib.

İstintaq araşdırmaları ilə həmçinin dövlət qayğısı ilə əhatə olunmuş işsiz və aztəminatlı vətəndaşların ictimai işlərə cəlb edilərək aylıq qazanc əldə edə bilmələri üçün onlara məxsus əməkhaqqı kartlarının İsmayıl Vəliyev tərəfindən müxtəlif adlar altında ələ keçirilməsinə əsaslı şübhələr müəyyən edilib.

Qeyd olunan vəzifə səlahiyyətlərindən sui-istifadə faktlarının təhsil, səhiyyə və digər yerli dövlət orqan və müəssisələrində davamlı korrupsiya əməllərinin törədilməsinə yol açdığı təsbit olunub.

Cinayət işləri üzrə İsmayıl Vəliyev vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, külli miqdarda təkrar rüşvət alma, mənimsəmə faktlarına görə, Vurğun Əkbərov, Anar Cəfərov, Vüqar Nağıyev, rayon Mərkəzi Xəstəxanasının baş həkimi Telman Zahidov, rayon Təhsil şöbəsinin müdiri Əjdər Kərimov və digərləri rüşvət alma və rüşvət vermə ilə bağlı faktlara görə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə şübhəli şəxs qismində saxlanılıblar.

Hazırda cinayət işi üzrə bütün halların tam, hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilərək istintaqa cəlb olunması istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

## BİLDİRİŞ

Şəki Subartezian Quyularının İstismarı İdarəsi tərəfindən 25 yanvar 2020-ci il tarixdə elan edilmiş 2020-ci ilin istismar tədbirləri üçün mal-materialların satın alınması üzrə açıq tenderin müddəti 7 (yeddi) bank günü uzadılmışdır.

İddiaçılar tenderdə iştirak etmək üçün ilkin sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) 25 fevral 2020-ci il saat 11:00-dək, tender təklifini və tender təklifinin bank təminatını isə 05 mart 2020-ci il saat 18:00-dək Şəki rayonu, Qoxmuq kəndi ünvanına təqdim etməlidirlər.

İddiaçıların təklifləri 06 mart 2020-ci il saat 11:00-da Şəki rayonu, Qoxmuq kəndi ünvanında açılacaqdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 27 noyabr 2019-cu il tarixdə elan edilmiş “Aztelekom” MMC və TKQ-də istismarda olan kompüter, skan və çap texnikası üçün texniki dəstək xidmətinin satın alınması” üzrə açıq tender proseduru üzrə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş və tenderin qalibi “CASPİAN SUPPLİES AZE” MMC müəyyən edilmişdir.

“Aztelekom” MMC ilə “CASPİAN SUPPLİES AZE” MMC arasında 07 yanvar 2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Dövlət Gömrük Komitəsinin Akademiyası tərəfindən 07 fevral 2020-ci il tarixdə keçirilmiş mətbəə məhsullarının satın alınması üzrə kotirovka sorğusu üsulu ilə satınalmaya dair müsabiqədə “Azərkitab 2012” MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 21 fevral 2020-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# Beynəlxalq aləm

## Meksikada kütləvi məzar aşkarlandı



Meksikanın Miçoakan ştatında içərisində 24 cəsəd olan gizli məzar aşkar edilmişdir. Bu barədə ştatın prokurorluğu məlumat vermişdir.

Məzar xüsusi əməliyyat nəticəsində tapılmışdır. Əməliyyat zamanı, həmçinin kriminal qruplaşma ifşa edilmişdir.

Məlumata görə, qurbanların əksəriyyəti 4-6 ay öncə həlak olmuşdur. Onların bəzilərinin başları kəsilmişdir. Qurbanların yaşı 20-40 arasındadır. Onların beşi qadındır.

Prokurorluğun məlumatında bildirilir ki, bu qətllərdə təqsirli olanların məsuliyyətə cəlb olunması üçün lazımi sübutlar var.

## Londonda məsciddə hücum



Böyük Britaniyanın paytaxtı Londonun Ricents parkında yerləşən mərkəzi məsciddə əlində bıçaq olan kişi dindarlara hücum etmişdir. Bu barədə yerli polis məlumat vermişdir.

Hücum nəticəsində bir nəfər ağır yaralanaraq xəstəxanaya çatdırılmışdır. Hadisə yerindən qaçmaq istəyən cinayətkar polis tərəfindən yaxalanmışdır. Onun hərəkətinin motivləri və şəxsiyyəti barədə məlumat verilmir. Lakin polis hadisəni hələ ki terrorizmlə əlaqələndirmir.

## Çində koronavirus qurbanlarının sayı 2236 nəfərə çatdı



Çinin materik hissəsində yeni tipli koronavirusun törətdiyi sətəlcəmdən ölənlərin sayı 2236 nəfərə çatmışdır. Xəstəliyə yoluxma hallarının ümumi sayı 75465 nəfərdir. 11633 xəstənin vəziyyəti ağırdır. 18264 nəfər müalicəni başa çatdırıb xəstəxanadan evə buraxılmışdır. Bu barədə Çin Dövlət Səhiyyə Komitəsi məlumat vermişdir.

Son bir gün ərzində ölkədə 889 yeni yoluxma halı qeydə alınmışdır. 118 nəfər dünyasını dəyişmişdir.

Komitə başçısının müavini Tszen İsinin dediyinə görə, Çində aprel ayından etibarən koronavirusa qarşı peyvəndin klinik sınaqları başlayacaq. “Sinxua” agentliyi xəbər verir ki, bəzi vaksinlər artıq heyvanlar üzərində sınaqdan keçirilir.

## Boliviyanın eks-prezidenti seçkilərə buraxılmadı



Boliviyanın eks-prezidenti Evo Morales özünün “Sosializmə doğru hərəkat” partiyasından parlamentin Senatorlar Palatasına namizədliyini irəli sürə bilməyəcək. Bu qərarı ölkədə seçki komissiyası rolunu oynayan Ali Seçki Məhkəməsi çıxarmışdır. Qərarda izah olunur ki, Morales ölkədə daimi yaşayış yeri olmadığından deputatlığa namizəd tələblərinə cavab vermir.

Prezident vəzifəsindən istefa verdikdən sonra Argentinada siyasi sığınacaq almış Morales Ali Məhkəmənin mövqeyini tənqid etmişdir. O, məhkəmənin qərarını “demokratiyaya zərbə” kimi qiymətləndirmiş və namizəd kimi “bütün tələblərə cavab verdiyini” bildirmişdir.

Ötən ilin dekabrında Boliviyada prezident seçkiləri keçirilmişdir. Ali Seçki Məhkəməsi dövlət başçısı Evo Moralesin artıq birinci turda qələbə qazandığını elan etmişdir. Hökumətin mövqeyi ölkədə kütləvi etiraz aksiyalarına səbəb olmuş və bunun fonunda noyabrın 10-da Morales istefaya getmişdir. Boliviyanın keçid hökuməti Moralesi terrorizmdə və kütləvi iğtişaşlara təhrikdə ittiham etmişdir.

## Fransada pensiya islahatına qarşı etirazlar səngimir



Fransada pensiya islahatına qarşı etiraz aksiyaları davam edir. Həmkarlar ittifaqlarının çağırışı ilə paytaxt Parisdəki Monparnas bulvarında toplaşmış nümayişçilər İtaliya meydanına doğru yürüş təşkil etmişlər. Bu barədə TRT telekanalı xəbər verir.

Pensiya islahatının geri çağırılmasını tələb edən nümayişçilər Prezident Emmanuel Makron administrasiyasının əleyhinə şüarlar səsləndirmişlər. Gücləndirilmiş təhlükəsizlik tədbirləri həyata keçirilmişdir. “Sarı jiletlər”in də iştirak etdikləri nümayişlər insidentsiz başa çatmışdır.

Ölkənin digər şəhərlərində də etiraz aksiyaları keçirilmişdir. Fransızların 75 faizi islahatın geri çağırılmasını, yaxud ona dəyişikliklər edilməsini istəyir.

Xatırladaq ki, ötən il dekabrın 5-də ölkədə yüz minlərlə adamın iştirakı ilə yeni islahata qarşı etiraz aksiyaları başlamışdır. Nümayişlərdə 36 nəfər yaralanmışdır. Onların 16-sı polis əməkdaşlarıdır. 85 nəfər saxlanmışdır. Nəqliyyat, səhiyyə sistemləri və vətəndaşlara xidmət sahəsində fəaliyyət göstərən ayrı-ayrı dövlət müəssisələrinin işində pozuntular yaranmışdır.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən istifadə üçün “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyətinə verilmiş 0313703, 0313704, 0313720, 0313721, 0313802, 0313803, 0313804, 0313814, 0313815, 0313825, 0313826 nömrəli “İnzibati xəta haqqında protokol” blankları itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Bakı Səyahətlər və Ekskursiyalar Bürosunun direktoru

**AĞALAR HACIYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Şəki Regional Ədliyyə İdarəsinin kollektivi Şəki Apelyasiya Məhkəməsinin hakimi Rövşən Rəfiyevə anası

**RAYA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 6940
Sifariş 585
Qiyməti 40 qəpik